

***“Azərbaycan” qəzetinin 322-ci nömrəsinin 1-ci səhifəsi***





**Cümə, 14 noyabr 1919-cu il, nömrə 322**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Cümə, 20 səfərül-müzəffər sənə 1338. 14 təşrini-sani 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## SİRK “MODERN”

## Mübarizənin son günləri

Cümə günü noyabrın 14-ndə 1919-ncu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi [ardı].

Bu gün 3 cift pəhləvan mübarizə edir.

Hamı güləşlər qətidir. 1-nci: Zakoroyko – Muznik; 2-nci: İran güləşi Gənc Əli – Buyvolov; 3-ncü: Qara Maska – Jande-Kolon.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında.

Tamaşa başlanacaq 8-də.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Sabah camaat sevgilisi Zakoroykonun benefisidir.

*14044*

## BAKI TACİRLƏR (KUPEÇESKİ) BANKININ İDARƏSİ

Bununla ümuma elan edir ki, oktyabrın 26-dan 1919-cu sənədə olan bank səhmdarlarının ümumi fövqəladə iclasının qərardadı mövcibincə, Maliyyə nazirinin icazəsi ilə bank 4-cü dəfə olaraq 80,000 səhmi hər səhm 250 rublədən cümləsi 20,000,000 rublə səhm buraxılır.

Buraxmaq üzrə kəndi binalıq [quruluş] sərmayəsini 10,000,000 rublədən 30,000,000 rubləyə qədər atidəki [aşağıdakı] qərar üzrə artırır:

1) Həmin 80,000 səhmin buraxılışı 2 seriyada olacaq; hər seriyadan 40,000 səhm;

2) Hər buraxılan səhmin qiyməti 300 rublə; bu məbləğdən 250 rublə binalıq sərmayəyə, 15 rublə ehtiyat sərmayəsinə, 20 rublə xüsusi ehtiyat sərmayəsinə və 15 rublə də səhmlərin buraxılmaq məxaricinə daxil olunur.

3) 1-ci və 2-ci seriyada buraxılan səhmlərin abunəsi başlanır dekabrın 15-dən (yeni üsul) 1919-cu sənədən və qurtarır dekabrın 23-də (yeni üsul) 1919-cu sənədə gündüz saat 12-də. 1-ci seriya səhminin fiyatı abunə yazılanda verilməlidir, yəni dekabrın 23-dən 1919-cu sənədən gec olmamaq[la], 2-ci seriya səhminin fiyatı iyunun 23-dən 1921-ci sənədən gec olmamaq üzrə verilməlidir.

4) Buraxılan səhmlər hisseyi-təməttödə [qazanc payında] iştirak edirlər: birinci seriyada yanvarın 1-dən 1920-ci sənədən başlamış, keçmişdə buraxılmış olan səhmlərlə müsavi [bərabər] əsaslar üzrə; 2-ci seriyada iyulun 1-dən 1920-ci sənədən başlamış, yəni hisseyi-təmməttönün yarısı miqdarında, hansı ki, keçmişdə buraxılan səhmlər üzrə 1920 sənənin yerinə veriləcək.

5) İmtiyazat verilir keçmişdən buraxılan səhmlər sahibinə bu qərar üzrə: hər seriyada keçmişdə buraxılan hər səhmə – bir səhm.

6) Abunə yazdıranda səhmdarlar banka ərzi-halları ilə bərabər, keçmişdə buraxılan səhmləri yainki bank tərəfindən lazımi möhürləri vurulmaqdan ötrü müvəqqəti şəhadətnamələr təqdim etməlidirlər.

7) Dekabrın 23-də 1919-cu sənədə gündüz saat 12-yədək 6-cı maddədə zikr olunan ərzi-halı səhmləri ilə təqdim etməyən və bu vaxta qədər 1-ci seriyada səhminin fiyatını verməyən zəvat [şəxslər] hər iki seriyada buraxılan səhmə sahib olmaq hüququnu itirir.

8) Əgər 1-ci və 2-ci seriyadakı yeni səhmlər yerdə qalmış olsa, mütənasib üsul ilə bölünəcək o səhmdarlar arasında – kim axırkı təyin olunan vaxtlardan gec olmamaq şərtilə yerdə qalan səhmlərin bölüşündə iştirak etmək arzusunda olduğunu banka bəyan etmiş.

9) Səhm fiyatını qəbul edəndə bankın əsl səhmi hazır olanadək, əvəzinə müvəqqəti şəhadətnamələr verir.

10) 4-cü buraxılış səhmlərinin abunəsi qəbul olunur bankın idarəsində, Bakı şəhərində.

## ALMANİYA İNQİLABININ BİRİNCİ İLLİYİ

Keçən sənə qərbi dövlətlər arasında müdhiş bir böhran, möhlik bir qələyan [təhlükəli bir coşqu] içərisində, hal və istiqbalından [bu günündən və gələcəyindən] ümidsiz, vuruşduğu düşmənlərin qüvvət və qüdrətindən aciz və hərcü mərci-daxili [daxili hərc-mərclik] altında zəbun qalmış bir dövlət var idi – Almaniya.

Keçən sənə tamam 9 noyabr günü Almaniya sərapa [başdan-ayağa] ixtilal, üsyan içərisində çalxanır və tufani-inqilab başda imperator Vilhelm olduğu halda bütün ricalı [dövlət xadimlərini], bütün dördillik hərbin bais və məsullarını yerindən oynadıb atırdı.

Hərbi-ümumi iki müttəfiq dövlətlərin siyasi, iqtisadi bir təxalüf [ziddiyyət] altında bulunmaları üzündən, iki cahangiranə [imperialist] qayələrin təərrüz etmələrindən [bir-birinə zidd olmalarından] doğmuş bir şey idi. İki koalisyon – İttifaqi-müsəlləs, Etilafi-müsəlləs – hər surətlə də cahangir iki mənzumeyi-düvəliyyəni [dövlətlər sırasını] təmsil edirdi. Fəqət bu iki zümreyi-düvəliyyə [dövlətlər qrupu] arasında bir ayrılıq var idi:

Etilafi-müsəlləs – Rusiya xaric olduğu halda – demokratik bir düvəli-müttəhidə [birləşmiş dövlətlər] idi. Halbuki İttifaqi-müsəlləs, yəni Mərkəzi Avropa dövlətləri daha ziyadə birər hökuməti-mütləqə [mütləqiyyət hökuməti, monarxiya] idilər. İxtiyari və yaxud təsadüfi bir surətdə də olsa Avropa dövlətləri arasında bir tərəfdən demokratik, digər tərəfdən avtokratik birər ittifaq olmuş, iki siyasi prinsip Hərbi-ümumi davam etdiyi müddətcə də yek-digərləri [bir-birləri] ilə vuruşmuşdur: idareyi-mütləqiyyə – avtokratizm, idareyi-ammə [xalq idarəsi] – demokratizm.

Bu hər iki siyasi əsas [prinsip] filhəqiqə [doğrudan da] nə Etilafi-müsəlləsdə tamamilə mövcud, nə də İttifaqi-müsəlləsdə qətiyyətlə cari [qüvvədə] idi. Bununla bərabər, Etilafi-müsəlləs dövlətləri arasında qanadları bükülmüş də olsa bir demokratizm, İttifaqi-müsəlləs dövlətlərində də, məşrutiyyət (konstitusion) pərdəsinə bürünmüş də olsa, bir avtokratizm vardı.

Daxili siyasi bir təşkilata malik olan dövlətlərin xaricdəki bütün siyasi işlərində təsiri hər zaman olmuşdur. Zəif bir demokratiya idarəsi qüvvətli bir hökuməti-müstəbidə qarşısında hər zaman böyük bir qüvvət çıxarmışdır.

Demokratik bir idarə altında yaşamış olan Davud da Qolyata qarşı hər zaman qalib olmuş, hər zaman müzəffər qalmışdır.

Bu qanuni-siyasi bizzat İran və yunan dövlətlərinin əsrlərcə təkrərrür etmiş [təkrarlanmış] müharibələrində də cari və amil olmuşdur.

İştə, bu düstur və ehkam sabiq Hərbi-ümumidə də bütün ciddiyyəti ilə təhəqqüq etdi [gerçəkləşdi]. İlk əvvəl bu həqiqətin qəhhar [qəhredici, məhvedici] zərbəsinə müəzzəm [əzəmətli] Rusiya istibdadı məruz qaldı. Qocaman çarlıq devrilib getdi.

Bundan sonra isə Mərkəzi dövlətlər bu aqibətə uğradı. Almaniya məğlub oldu, ümumi və beynəlmiləl imtahanda müvəffəqiyyətsiz qaldı. Bunun üçün də o idareyi-mütləqə səhneyi-tarixdən vida etdi.

İştə, Almaniya inqilabının çıxmasına amil olan əhval.

Rusiyanın Fevral inqilabı kimi Almaniyanın da 9 noyabr inqilabı məğlubiyyətin, hezimətin [yenilməyin] nəticəsi idi. Bu şərait altında çıxan inqilablar isə zəif, məriz [xəstə] və səmərəsizdir. Rusiya inqilabının mərəzi [xəstəliyi] Almaniyaya da sirayət etdi [yoluxdu]. Fəqət hər şeyi bilmiş, özünün qüvvət və qüdrətinə inanmış olan Almaniya demokratiyası bu mərəzə təhəmmül etdi [dözdü], böyük bir afətə [bəlaya] düşmədən özünü buldu.

Lakin bir az mütədənni [geriləmiş] bir halda bulunan Macarıstan ilə mayəül-həyatı [həyat sərmayəsi] kəndçilik olan Bavariya, Rusiya kommunizminin mərəzinə uğradı, fəqət bu da müvəqqəti bir şey oldu.

Almaniya demokratiyası ümum və beynəlmiləl arasında idraklı, təcrübəli, durəndiş [gələcəyi fikirləşən, tədbirli, ağıllı] olması ilə tanılmışdı. Bunu Almaniya inqilabı tamamilə isbat etdi.

Almaniya sosial-demokratiyası öz nöqteyi-nəzərində isabət etdi [haqlı çıxdı] – o, qorxunc və ümidsiz bir hərcü mərc içərisində öz-özünü aldatmadan inqilabın ifratlarına bütün qüvvəti ilə mane oldu.

Filhəqiqə [əslində] Almaniya daha fəlakətlərdən qurtulammamışdır. Fəqət yarım əsrlik bir dövrdə cahanın ən mədəni bir milləti hesabına girən almanlar bu inqilabdan sonra da heç bir məmləkətə nəsib olmayan müntəzəm və ali bir üsuli-idarə altında yenə cahan

millətləri arasında bir mövqe sahibi ola bilər.

Almaniya inqilabı da Rusiya inqilabı kimi isbat etdi ki, inqilablar hər millətin ancaq öz daxilində olub, beynəlmiləliyyət, sosializm əqidəsi kimi cahanşümul bir daireyi-tətbiqiyyəsi [tətbiq dairəsi] mümkün olammaz.

*Ə[hməd] H[əmdi] [Qaraağazadə]*

## SON XƏBƏRLƏR

**Ermənistan-Azərbaycan Konfransı dəvətinə dair**

Azərbaycan Cümhuriyyətinin Xariciyyə naziri və Azərbaycanda olan Ermənistan nümayəndəsi təşrini-saninin [noyabrın] 12-sində böylə bir teleqram almışlardır:

*"Azərbaycan-Ermənistan Konfransı dəvətinə Azərbaycan hökumətinin razı olduğunu açıq-aşkara bəyan etməsinə istinadla, erməni hökuməti qərar vermişdi ki, konfransın açılması təşrini-saninin 20-sinə təyin edilsin. Deleqalar [nümayəndələr] seçilmiş və gəlmək üzərə ikən səfərlərini təcil etməyə [təxirə salmağa] məcbur oldular. Çünki bu gün Ermənistan hökuməti mövsuq [etibarlı] mənbələrdən xəbər almışdır ki, Azərbaycan qoşunları Zəngəzuru müsəlləh qüvvə ilə almaq qəsdilə Ermənistana məxsus olan Zəngəzur müqabilinə müharibə hərəkatı başlamışlardır. Xoznavar və Bayandur kəndləri ətrafında 7 gündür ki, şiddətli vuruşmalar gedir.*

*Azərbaycan-Ermənistan Konfransının əsasına və bütün mübahisəli məsələləri sülh təriqi [yolu] ilə həll etməkdən ibarət olan məqsədlərinə zidd olub, bütün Zaqafqaziyanı yeni fəlakətlərlə təhdid edən bu hərəkət həmişə ümum ixtilaflı məsələlərin konfrans təriqi ilə sülhlə həll edilməsi tərəfdarı olan və daima bu nöqteyi-nəzərdə duran Ermənistan hökumətini məcbur edir, bir daha Azərbaycan hökumətinə müraciət və bilatəxir [dərhal] dava hərəkatını və Zəngəzur ətrafını müsəlləh qüvvə ilə işğal etmək təşəbbüslərini dayandırmasını təklif etsin. Əks surətdə Ermənistan hökuməti qanlı müsadimələrin [toqquşmaların] böyüyüb artması və onun bütün Zaqafqaziya üçün verəcəyi fəlakətli nəticələrinin məsuliyyətini tamamilə Azərbaycan hökuməti üzərinə atacaqdır.*

*12 təşrini-sani*
*Ermənistan Xariciyyə naziri:*
*Xatisov"*

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz teleqraf mövqifi tərəfindən alınmışdır)*

**12 təşrini-sani**

*(Bolşevik xəbərləri)*

**Hərbi əməliyyat**

Fin körfəzi səvahili [sahilləri] dairəsində bizim qoşunlarımız Yamburqdan şimala olan göl xətlərinə çataraq, təşrini-əvvəlin [oktyabrın] ortasında tərəfimizdən buraxılmış istehkamatı yenidən işğal etdilər.





Çerniqov dairəsində - Bizim hissələrimiz Çerniqov altında vuruşma ilə yürüş edirlər.

Dmitrov dairəsində - Bizim hissələrimiz Dmitrovu aldıqdan sonra müvəffəqiyyətlə dairəni genişlətməkdədirlər. Şəhərdə və dəmiryolunda tərəfimizdən əsir, mitralyoz, mərmi və tibb alatı [avadanlığı] ilə dolu iki qatar tutulmuşdur. Şərqdə Mixaylovka kəndinin işğalı əsnasında altı top, mitralyoz və qeyri qənimətlər alınmışdır.

Kursk cəbhəsində - Fatejin şimalında olan vuruşmalarda tərəfimizdən düşmənin əvvəlinci Kornilov alayının bir hissəsi münhəzim [məğlub] edilmiş, əsir, 6 mitralyoz, əlbisə və qeyri qənimətlər alınmışdır.

Şkrovsk dairəsində - Şıkrı şəhərinin şimalında vuruşmalar davam edir.

Kastornov dairəsində - Kastornov mövqifindən şərqə və şimal-qərbə tərəf ciddi vuruşmalar gedir.

Liski və Bobrov dairəsində təbəddülat [dəyişiklik] yoxdur.

Novoxopyorsk dairəsində - Bizim hissələrimiz yürüşə keçərək Novoxopyorskdan 15 fərsəx şimala olan xətlərə çatmışlardır. Xopyorda Orpinin cənubunda şiddətli vuruşma davam edir.

Tsaritsın cəbhəsində - Volqa nəhrinin sol kənarında vuruşma ilə tərəfimizdən İşim alınmışdır.

Hacı-Tərxan dairəsində - Hacı-Tərxandan 6 fərsəx şimal-şərqdə vuruşmalar davam edir.

Ural dairəsində - Quryevdən şərqə yürüşümüz davam edir.

Petropavlovsk dairəsində - Sibirya dəmiryolunda bizim qoşunlarımız Omsk şəhərinin 30 fərsəxliyində vaqe Koçubayev mövqifini işğal etmişdir. Şimalda Palutorok dairəsinə yürüşümüz davam edir. Tümendən şimala Omsk dəmiryolunda tərəfimizdən Tyukalinks şəhəri işğal edilmişdir. İşim nəhri üstündə bizim hissələrimiz İbaqulsku işğal etmişdir.

Bu axır günlərdə təşrini-saninin 3 və 10-da Kolçakın pərakəndə edilmiş qoşunlarından 11-ci Ural firqəsinin 41, 43 və 44-cü alayları və 15-ci Sibiriya firqəsinin 59-cu alayı firqə ərkanı [diviziya qərargahı] ilə tərəfimizdən əsir alınmışdır. 18-ci firqənin ərkani-hərbi ilə komanda heyəti təslimdən imtina etdikləri üçün məhəllində [yerində] güllələnmişlərdir.

**Latviya ilə nemeslər müharibəsi**

Riqa - A. nəhri cəbhəsində Fridrixştadt şəhərinə kimi top, mitralyoz və tüfəng atışması davam edir. Latış hissələri Vebrisk istehkamatını işğal etmişdirlər. Nemeslər müşəvvəş [dağınıq] bir surətdə fərar edirdilər. Nemeslər səhər saat 4-də şiddətli atışmadan sonra bütün cəbhə üzərində yürüşə keçərək top atəşi açmaqda, boğucu qaz buraxmaqda idilər. Latış hissələri İngiltərə donanması yardımı ilə nemeslərin yürüşlərini dəf etmişlərdir. Yürüşdə 12 alman alayları iştirak edirdi.

**Ümumi tətil**

Lion - Rayxenberqin bütün zəhmətkeş əhalisi düşənbə [bazar ertəsi] günü ümumi tətil elan edilməsinə qərar vermişdir.

**Yaponiya qəzetəsinin mütaliəsi**

Çelyabinsk - Yaponiya qəzetələrindən

"Qou” Sibirya vəziyyətini mütaliə edərək [qiymətləndirərək] yazır:

*“Bolşeviklərin Əqsayi-Şərqdə [Uzaq Şərqdə] təbliğat və təşviqat yapdıqları bir zamanda Yaponiyanın Sibirya əsgərlərini təxliyə etməsinə heç bir əsas yoxdur.”*

**Lehistanda idareyi-əsgəriyyə**

Nauen - Təşrini-saninin 7-də Dombrovskda kömür dairəsində güclü surətdə kommunistlər nümayişatı olduğundan naşi [ötrü] bütün Lehistan [Polşa] idareyi-əsgəriyyə [hərbi rejim] altında elan edilmişdir.

**Parisdə kömür böhranı**

Lion - Parisdə kömür böhranı davam etməkdədir. Yaxşılaşmaq əlamətləri müşahidə edilməyir. Paris ətrafında olan 3000-ə yaxın fabrikalar işlərini qət etməyə [dayandırmağa] məcbur olmuşlardır. Tramvay hərəkatı dayandırılmış və şəhərin bir çox yerlərində tənvirat [işıqlandırma] dəxi əskilmişdir.

**Kalmıkların denikinçilərlə mübarizəsi**

Başqırd ovalarında bizim üçün müvəffəqiyyətli olan Denikin dəstələri ilə vuruşmalar davam edir. Kalmık əhalisi denikinçilərə şiddətli müqavimət göstərməkdədir.

**Kubanda iğtişaş**

Tixoretsk mövqifi [stansiyası] dairəsində və Kuban mahalında ümumi üsyan qalxmaqdadır. Üsyanı yatırtmaq üçün hərbi komandanlıq cəbhədən qoşun götürməyə məcbur olmuşdur. Ukrayna ilə münasibat kəsilmişdir. Üsyan hərəkatından naşi [ötrü] Xarkov şəhərindən başqa Ukraynanın bütün şəhərləri ilə əlaqələr qət edilmişdir [kəsilmişdir].

**Baş komandana sui-qəsd**

Macarıstan ordusunun Baş komandanı general Xorti canına müvəffəqiyyətsiz sui-qəsd olunmuşdur. Cani həbs edilmişdir.

*(Gürcü teleqraf agentəliyindən)*

**Fransa mətbuatı**

**Bolşeviklər Amerikada**

Amerika hökuməti 200 bolşevikin həbs edilməsini əmr etmiş və bolşeviklərin cümləsini bütün məmləkətdən çıxarmağı qərara almışdır.

**Suriya**

General Quro təşrini-saninin 15-də Suriyaya əzimət edəcəkdir [gedəcəkdir]. “Matin” qəzetəsi müxabiri [müxbiri] ilə etdiyi müsahibə əsnasında həm Suriya və həm Fransa mənafeyi riayə edilməsi [gözlənilməsi] şərti ilə və İngiltərənin razılığı ilə işləyə biləcəyinə ümidvar olduğunu izhar etmişdir.

**İtaliya mətbuatı**

**İtaliya və Fransa**

Tittoninin məktubuna cavabən Klemanso, hərbə aid statistik məlumatı göndərərək, hər iki tərəfin ittifaq yapması lazım olduğunu və bu ittifaqın möhkəmləşməsinə var qüvvəsini sərf edəcəyini də dəxi yazır.





*(Qafqaziyadakı Müttəfiqlər heyətinin radio xəbərləri)*

**Macarıstan əhvalı**

Ali Şura Macarıstan hökumətinə təəllüqü [aidiyyatı] olan bütün əmvalın [malların] Macarıstan xəzinəsinə iadə edilməsinə [qaytarılmasına] qərar vermişdir. Bu qərardan əqdəm [qabaq] əmvalın bir hissəsi Macarıstan tərəfindən İtaliyaya güzəşt edildiyindən, Tittoni Klemanso ilə müşavirədə bulunmuşdur.

**General Manjen İstanbulda**

Fransa hökuməti tərəfindən Denikin qərargahına təyin edilən heyət rəisi general Manjen öz heyəti ilə İstanbula vürud etmişdir [gəlmişdir].

**Yaponiya hərbi heyəti Rusiyada**

Rusiyaya təyin edilən Yaponiya hərbi heyəti polkovnik Nataxaki rəyasəti [başçılığı] ilə İstanbula varid olmuşdur [gəlmişdir]. Heyət körpüdə Könüllü ordu nümayəndəsi tərəfindən istiqbal edilmişdir [qarşılanmışdır].

**Misir vis-kralı**

Geniş ixtiyarat ilə Misir vis-krallığına general lord Allenbi təyin edilmişdir.

**Fransa, İtaliya və Romaniya ittifaqı**

Romaniya mətbuatı bu yaxınlarda Fransa, İtaliya və Romaniya arasında ittifaq əqd ediləcəyini [imzalanacağını] xəbər verir. Bu ittifaqa gələcəkdə Lehistan [Polşa], Cənubi Slovakiya və Çex-slovak hökumətləri iltihaq edəcəklərdir [qoşulacaqlar].

**Puankare İngiltərədə**

Təşrini-saninin 7-də rəis Puankare öz zövcəsi ilə İngiltərəyə əzimət etmişdir [yola düşmüşdür].

**Fransa hərbi donanmasının zayiatı [itkiləri]**

Hərb zamanında Fransa donanmasından 27 böyük gəminin zaye edildiyi [itirildiyi] rəsmi surətdə elan edilmişdir.

**SÜLH ƏTRAFINDA**

**Sülh Konfransında**

Paris, 10 təşrini-sani - Almaniyanın sülh müahidanaməsi şəraitini ifa etməsindən ötrü Parisdə qalmış olan Sülh Konfransı əzası [üzvləri] yenə bir çox təşəbbüsata sarılmalıdırlar. Bu məsələ Xariciyyə Nəzarətinə verilə bilməyəcəkdir. Məclisi-Alidə bir çox müzakirata səbəb olan işlər müxtəlif nəzarətlərə veriləcəkdir. Ümid etmək olar ki, Fiume və Adriatik səvahili [sahilləri] münaqişəli məsələsi Məclisi-Ali tərəfindən həll edilsin.

Tittoni hal-hazırda xəstədir. Lakin İtaliya heyəti-mürəxəsəsinin başqa əzası Amerika və qeyri mürəxxəslərlə birlikdə iclaslara davam edirlər. Şimdi zahirən həpsi razı olublar ki, Məclisi-Ali Rusiya və Türkiyə məsələlərini həll etmədən işlərini bitirməyəcəkdir.

Yek-digəri [bir-biri] arasında rəqabətə başlamış Avropa dövlətləri vəziyyəti-siyasiyyənin digərgun olmasından [dəyişməsindən] dolayı Türkiyəni bilatəxir təqsim etməyə [dərhal bölüşdürməyə]

imkan bulammayacaqlardır. Bolqariya müahidənaməsi bir neçə günə kimi imza ediləcəkdir. Hərgah Məclisi-Alidə olan Avropa dövlətləri nümayəndələri Romaniya məsələsində düzəlişərlərsə, o zaman Məclis bir neçə vaxtdan sonra macar hökumətini təsdiq edib onunla da müahidənamə əqd edəcəkdir [saziş imzalayacaqdır].

Balkanlarda olan münaqişə və münaziələr [çəkişmələr] iskat olub-olmasa da [sakitləşib-sakitləşməsə də], Sülh Konfransı kəndi işlərini kanuni-saninin [noyabrın] əvvəlinə kimi bitirəcəkdir. Amerika mürəxxəsləri evlərinə övdət edərək [qayıdaraq], dövlətlər arasında artıq vasitəçilik etməyəcəkdir. Zira onlar Amerikanın xidəmatını [xidmətlərini] təqdir etməyərək, kəndi xüsusi məqsədlərinə yetişmək üçün daima Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] üzərinə təərrüzatda [hücumda, təcavüzdə] bulunmuşlardır.

Amerika heyəti-mürəxxəsəsi kanuni-saninin 1-nə kimi işlərini təhvil verəcək və Sülh Konfransında olan Amerika mürəxxəsləri də o vaxta kimi evlərinə qayıdacaqlardır. Hərgah Amerika razılıq versə, katiblik vəzifəsini ifa edən Huver və Smull Etilaf komisyonunda Uels ilə birlikdə çalışmaq üçün Parisdə qalacaqlardır.

## QƏZETƏLƏRDƏN

### Fransızlar İstanbulda

Parisdən edilən binagüzarlığa [sərəncama] görə, İstanbuldakı Fransa dəniz üssülhərəkəsi [bazası] götürülür. Ancaq yalnız İstanbul limanının fransız komandanı qalır, üssülhərəkənin bütün işləri də onun təhti-idarəsinə [tabeçiliyinə] verilir.

### İdil qırmızı gəmiləri

Tsaritsından "Press büro" xəbər verir ki, İdil nəhrinin tezlikdə donacağına görə, bolşeviklər bütün gəmilərini Tsaritsından Kazana və Nijni Novqoroda aparmışlardır. Böylə görünür ki, bolşeviklər Kazanı və Nijni Novqorodu gələn bahara kimi əllərində saxlaya biləcəkləri zənnindədirlər.

### Almaniyada

Ümumi tətilin Berlində münqəte olmasını [dayanmasını] mətbuat Almaniya iqtisadi həyatının təcəddüdü [yenilənməsi; bərpası] kimi tələqqi edirlər. Bu vəqə Almaniyanın sülh müahidənaməsi şəraitini ifa etməyə əminlər və vədlər verir, deyirlər. [Deyirlər ki, bu hadisə, Almaniyanın sülh sazişinin şərtlərini yerinə yetirməsinə inam və ümid verir.]

Qəzetələr fürsətdən istifadə edərək yazırlar ki, Almaniya sülh müahidənaməsi şəraitini, nə qədər ki, insan qüvvəsi daxilində mümkündür, ifa etməyə hazırdır.

Fransada hərbi əsirlərin saxlanılması Almaniyada yeni hərəkat qaldırmışdır. Təşrini-saninin 11-dən etibarən cəmi Almaniya fraksiyaları və mətbuatın iştirakı ilə Almaniyanın hər tərəfində, Fransada əsirlərin saxlanılmasına qarşı "etiraz həftəsi" açılacaqdır.

Mətbuatın bəzi qismi Fransada əsirlərin saxlanılmasının səbəbini bilmək istəyərək yazır ki, bu fəqərə [hadisə] Almaniya-Fransa münasibatının yaxşılaşması yolunda sərf edilən ehtimalların həpsini məhv edir.

Ümid edirlər ki, bu etiraz Fransanı məcbur edəcək ki, yarım milyon Almaniya əsirlərini ailələrinə qaytarsın.

* * *

Sərnişin qatarları hərəkatının müvəqqətən kəsilməsinə görə Berlin ilə Drezden arasında avtobuslar işləyirlər.

* * *

Almaniya hökuməti hərbi əsirlərin Fransada saxlanılması münasibətilə Parisə protesto notası göndərmişdir. Notada denilir ki, başqa məmləkətlərdən hərbi əsirlər vətənlərinə qaytarıldığı halda, Fransa iki qışdır ki, Almaniya əsirlərini saxlamışdır. Əlavə olaraq notada denilir ki, Almaniya sülh müahidənaməsi imza ediləndən irəli də müahidənamənin ağır şəraitini ifa etmək üçün var qüvvəsini sərf etmişdir.

## TÜRKİYƏDƏ

### Mustafa Kamal paşanın şayani-diqqət bir raporu

"İqdam" qəzetəsi yazır:

Hərbi-ümumidə türk ordularının ilk pozğunluğu [məğlubiyyəti] İraqda vüqua gəlmişdi. O zaman Ənvər paşa Almaniyanı Şərqdə daha ziyadə fəal bir rol oynamağa iqna etmiş [razı salmış], məşhur general Falkenhaynı buraya cəlbə çalışmışdı.

Falkenhayn Hələbdə toplayacağı bir ordu ilə Bağdada təərrüz [hücum] edəcəkdi. Halbuki bu sıralarda Fələstin cəbhəsi zəifləməyə başlamışdı.

Bağdada qarşı milli bir hərəkəti-təərrüziyyə [hücum hərəkatı] icrası pək müşküldü.

Bundan maəda [bundan əlavə], böylə bir təşəbbüs Suriya və Fələstinin də vəziyyətini pək müşkülləşdirəcəkdir. O zaman Mustafa Kamal paşa bəzi ordu qəhrəmanları ilə birlikdə bu həqiqəti Qərargahi-ümumiyə [Baş qərargaha] bildirdisə də, Ənvər paşa başlamış olduğu bu təşəbbüsdə geri dönmək istəmədi. Böyük bir alman generalını bir iş gördürmədən geri çevirmək izzəti-nəfsinə güc [ağır] gəlirdi.

Bunun üzərinə general Falkenhayn, Fələstin orduları komandanı oldu. Fəqət müzakirələr, mütaliələrlə [vəziyyəti qiymətləndirməklə] vaxt keçirilmiş, Fələstinə heç bir qüvveyi-imdadiyyə göndərilməmişdi. İngilislər təərrüzə keçdi.

Ordu pozuldu, Fələstin və Suriya əlimizdən çıxdı.

Mustafa Kamal paşa məmləkətin hərbə davam macalı qalmadığını və bundan sonrakı cinnət [dəlilik] olduğunu İstanbula göndərdiyi raporla anlatmağa çalışırdı.

İngilislər təərrüzə başlamazdan əvvəl Mustafa Kamal paşanın İstanbula yazdığı bu tarixi raporu bərvəchi-zir [aşağıda] dərc ediriz:

10 eylül 333 tarixində Hələbdən Sədrəzəm [Baş nazir] və Daxiliyyə naziri Tələt paşa ilə Baş komandan vəkili və Hərbiyyə naziri Ənvər paşaya ayrı-ayrı göndərilən raporun surəti:

*"Vəziyyəti-ümumiyyə haqqındakı mütaliati-acizanəmi bərvəchi-ati [aşağıdakı şəkildə] ərz edirəm.*

*Məmləkətin müqəddərati-ümumiyyəsini idarədə məsul və mədxəldar olan [əlaqədar olan; dəxli olan] zati-dövlətlərinin ifadatımı [ifadələrimi] heç bir bədbinliyə və təlaşa həml etməyərək [yozmayaraq], kamali-etidal və ciddiyyətlə tələqqi edəcəklərinə [tam soyuqqanlılıq və ciddiyyətlə qiymətləndirəcəklərinə] etimadım, mülahizatımı əhatə edə bildiyim ən vase [geniş] miqyasda təsvirə saiq olmuşdur [məni sövq etmişdir]:*

*1) Əhvali-ümumiyyeyi-məmləkət hər şeydən əvvəl nəzəri-diqqəti calibdir [cəlb edir]. Hərb hər millətdən olan ənasir [ünsürlər] arasındakı imtizacsızlığı [bir-biri ilə yola getməməyi] bilaistisna [istisnasız] son dərəcəyə gətirmişdir.*

*Əhali ilə idarə arasındakı rəvabit [rabitələr] sarsılmışlardır. Evlərində qalan əhali hər nöqteyi-nəzərindən hökumətdən uzaq qalmaqda mənfəətdar hala gəlmişdir. Çünki qalan əhali ya qadınlardan, ya acizlərdən və ya fərarilərdən ibarət olub, məhsulatı-səy və əməlləri kəndi idareyi-həyatlarında kafi deyil ikən [səylərindən və çalışmalarından əldə etdikləri şeylər öz həyatlarını sürdürməyə kafi olmadığı halda], hökumati-mülkiyyə və əsgəriyyə onlardan aclıq və ölüm müqabilində mal-mülklərini əxz və tələbdə daha ziyadə müsirr və müənnid [almaq və tələb etmək barədə daha çox israrlı və inadkar] olmaq məcburiyyətindədir.*

*Digər tərəfdən hökumati-mülkiyyənin əczi-tammı [tam bir acizlik içində olması], ümumi anarşiyə sürüklənən həyati-ümumiyyəni idarəyə mane olub, hüquqi-əhali naminə nə mütəsəvvərsə [təsəvvürə gələn nə varsa], kaffəsini ədl və haqqa müğayir və binaənileyh əhalinin təzyidi-nifrətini müəddi bir şəkildə həll etmək etiyadi-zərurisindədir [hamısını ədalət və haqqa zidd, bu üzdən də əhalinin nifrətinin artmasına səbəb olacaq bir şəkildə həll etmək məcburi adəti olmuşdur].*

*Hökumati-mülkiyyənin əczi-tammı bir qüvveyi-zabitənin fiqdani-mütləqindən və dərdi-ehtiyac ilə ələlümum məmurinə tari olan irtikab və ehtikar və sui-istemalatdan və məmurinin kefinə düşkün bir hala gəlməsindən və ümuri-ədliyyənin surəti-mütləqədə işləməməkdə olmasından irəli gəlməkdədir. [Mülki hökumətin tam bir acizlik içində olması, qayda-qanun yaradacaq qüvvələrin qətiyyən mövcud olmamasından və ehtiyac dərdi ucbatından bütün məmurlarda müşahidə edilən rüşvət, möhtəkirlik və vəzifədən sui-istifadə etmək hallarından və məmurların kefinə düşkün bir hala gəlməsindən və ədliyyə prinsiplərinin qəti surətdə işləməməsindən irəli gəlməkdədir.]*

*Bu əsbab həyati-ümumiyyəni hər guşədə və hər bəldədə əsasından çürütməkdədir. İaşeyi-ümumiyyənin və ümuri-ticariyyə və iqtisadiyyənin [ticari və iqtisadi işlərin] müdhiş bir surətlə inhitata [süqut etməyə] başlaması əlaimi-əsliyyədəndir [başlıca əlamətlərdəndir].*

*Bu gün bir para məsələlər hasil olmuşdur ki, bu dərd nə əhalidə, nə məmurində bir əmniyyəti-ati [gələcəyə inam] buraxmaqda və ərbabi-namusu ələlaqi-müqəddəsədən təmərrüdə sövq və icbar etməkdədir [namuslu insanları müqəddəs bağlardan qopmağa sövq və məcbur etməkdədir].*

*Binaənileyh [ona görə], hərb davam etdiyi halda qarşısında bulunduğumuz ən böyük təhlükə hər tərəfdən çürüyən binayi-müəzzəmi-səltənətin [səltənətin əzəmətli binasının] bir gün daxilən birdənbirə və həp birdən çökməsi ehtimalıdır.*

*2) Vəziyyəti-ümumiyyeyi-əsgəriyyə, hərbin yaxın bir atidə [gələcəkdə] xitamına işarət verməkdədir. Müttəfiqlərimizin zərəbani-əsgəriyyə ilə [müharibələrlə, silah gücüylə] düşmənlərimizi məcburi-sülh edəcəkləri artıq mövzuyi-bəhs olmayıb, almanlar idareyi-sövqülceyşiyyəni [strateji idarəetməni] "Gəliniz bizi məğlub ediniz" əsasına rəbt etmişlərdir [prinsipinə bağlamışlar]. Düşmənlərimizin bir-birindən ayrılmayacaqlarını zaman göstərməkdə olub, düşmən əhalinin də səfalət və məhrumiyyəti az olmaq və kəndi etiqadlarınca əmin bir nəticəyə vasil olmaq ehtimalı ilə bizim dayana [dözə] biləcəyimiz qədər imtidadi-hərbə təhəmmülləri [müharibənin uzanmasına dözmələri] təbiidir.*

*Binaənileyh, hərb daha çox imtidad edəcəkdir [uzanacaqdır] və hərbin xitamı anaxtarları [açarları] bizim partinin əlində deyildir, nəticəsini çıxarmaq lazım gəlir.*

*3) Türkiyənin vəziyyəti-əsgəriyyəsi şudur: Ordu hərbin ədvari-ibtidaiyyəsinə [ilk dövrlərinə] nisbətlə fövqəladə zəifdir. Bir çox orduların mövcudu lazım olan miqdarın beşdə biri kimidir. Məmləkətin insan mənabeyi nöqsanı ikmala müqtədir deyildir. [Ölkənin insan potensialı, çatışmazlığı aradan qaldırmaq gücündə deyil.]*

*Hətta Yeddinci ordu kimi bütün məmləkət içində ikmal və təqviyəsinə [gücləndirilməsinə] çalışılan yeganə ordunu dəxi daha düşmənlə bir tək qurşun atmadan qüvvətli tutmağa imkan bulammayırız.*

*Külfəti-ümumiyyəyə [ümumi çətinliklərə] bir misal olmaq üzrə ərz edəyim ki, cahanın ən müşkül işlərini görmək üzrə minər mövcudlu [min nəfərlik] taborlarla mənə göndərilən 59-cu firqənin [diviziyanın] yüzdə əllisi ayaqda durmağa macalsız züəfadan [zəiflərdən] ibarət olduğundan təfriq edilmiş [ayrılmış, çıxarılmış] və sağlam qalan əfrad [fərdlər] 17-20 yaşındakı nəşvünüması z [yetişməmiş] çocuqlarla, 45-55 yaşındakı əməlmandələr [yaşlılıq və şikəstlik səbəbindən iş görə bilməyənlər] qalmışdır. Digər ən eyi firqələrin taborları da Dərsəadətdən min mövcudla hərəkət və ən qüvvətlisi 500 mövcudla Hələbə müvasilət etmişlərdir [çatmışlar]. Bu halın əsbabı [səbəbləri] həyati-ümumiyyəyə və hökuməti-mülkiyyənin qüvvətlərinə tabe və binaənileyh, bu gün islahı [düzəldilməsi] orduların əlində olmayan əvamilə mərbutdur [amillərə bağlıdır].*

*Bu misal göstərir ki, bütün mənabeyi [mənbələri] toplayaraq ufaq bir qismi dəxi qəvi [güclü] bulundurmağa imkan yoxdur.*

*Heyəti-zabitanın kəmiyyətə və keyfiyyətə nöqsanı möhtaci-izah deyildir.*

*Cəbhələrimizin mətalib [tələbləri] və ehtiyacı şudur:*

*Qərbdə düşmənlə qarşı-qarşıya təmas mövcud deyildir. Ancaq paytaxtımızı və cahanla olan müvasiləti-bəhriyyəni [dəniz əlaqəsini] və ən zəngin məmurələri havi bulunduğundan [yaşayış məskənlərini ehtiva etdiyindən], ərəb cəbhələrimizə düşmən tərəfindən həyati zərbələrə təşəbbüs edilməsi ehtimalı mövcuddur.*

*Qafqaziyada vəziyyəti-əsgəriyyə halitəvəqqüfdə [gözləmə halında] olub, tərə-*

*fimizdən istirdadi-mafata [itirilən yerləri geri almağa] təşəbbüs mümkün deyildir. Rusların əhvali-daxiliyyələri və Avropada ehtiyacları fəal bulunmalarına pək saiq deyilsə [imkan vermirsə] də, hər hankı bir səbəblə ruslar buna təşəbbüs etdikləri halda, bunu mən' və ya təhdid etmək [buna mane olmaq və ya qarşısını almaq] bizim qüvvətimizə tabe olmayan bir məsələdir. Ruslar kəndi hazırlıqları və kəndi vəsaitləri nisbətində iş görürlər və bunların müsaid ol[ma]dığı yerdə təvəqqüf edərlər [dayanıb gözləyirlər].*

*İraqda ingilislər hədəflərini istehsal etmişlərdir [əldə etmişlər]. Binaənileyh [ona görə], daha irəliyə təmdidi-istila etməsi [istilanı davam etdirməsi] üçün əsbabi-siyasiyyə və iqtisadiyyə və əsgəriyyə [siyasi, iqtisadi və hərbi səbəblər] ol[ma]dığı qənaətindəyəm. Mahəza [bununla belə], əgər düşmən təmdidi-hərəkat və iktisabi-müvəffəqiyyat edərsə [hərəkatı davam etdirər və müvəffəqiyyətə nail olarsa], zayiati-mövcudəyə [mövcud itkilərə], məsələn, Mosulun da əlavəsi həyati-ümumiyyəyə bir zərbeyi-qətiyyə [qəti bir zərbə] mahiyyətində olammaz. Denilə bilər ki, vəziyyəti-ümumiyyə, adətən, dəyişməmiş olur. O halda, bu cəbhədə dəxi bir intizardan [gözləməkdən] başqa bir şey yapammayız.*

*Sina və Hicaz cəbhələrində düşmən əhdafi-əsgəriyyə və siyasiyyəsini hənuz istehsal etməmişdir [hərbi və siyasi hədəflərinə həlalik çatmamışdır] və anlaşıldığına görə, bunun üçün kamali-hərarətlə hazırlanmaqdadır. İngiltərəyə xadim bir aləmi-islamın əsası və İngiltərə nüfuzuna tabe bir Fələstin hökuməti-xristianiyyəsinin [xristian hökumətinin] təşkili və bu surətlə Misir və Süveyş və Bəhri-Əhmərin [Qırmızı dənizin] ilələbəd [əbədi olaraq] təmini və Türkiyəni son qüvayi-diniyyəsindən [dini qüvvələrindən] və ən gözəl məmurələrindən təbid [uzaqlaşdırmaq] və təcrid həvəsləri İngiltərə üçün, adətən, Hərbi-ümuminin hədəflərindən olacaq qədər mühüm, bizim üçün də təlafisi mümkün olmayan zərəbati-həyatiyyədən məduddur [kompensasiyası mümkün olmayan, həyati əhəmiyyət daşıyan zərbələrdən sayılır].*

*Xülasə, Qərbdə möhtəməl təərrüzati-ciddiyyəyə müntəzir olmaq və Suriya hüdudunda vaqe və müstəhzər olan düşmən hərəkati-əsliyyəsinə müvəffəqiyyət verməmək vəziyyəti-ümumiyyeyi-əsgəriyyəmizin şimdiki mübrəm tələbləridir. [Xülasə, Qərbdə ehtimal edilən ciddi hücumu gözləmək və Suriya sərhədində düşmənin mövcud və hazırlanan əsil hücumunda müvəffəqiyyətə nail olmasına imkan verməmək, ümumi hərbi vəziyyətimizin hal-hazırkı vacib tələbləridir.]*

*Vəziyyəti-ümumiyyə bu halda ikən, məsələn, son qüvvətlərlə İraqın istirdadını [geri alınmasını] düşünməyə imkan yoxdur.*

*Ən qüvvətli səbəb – düşmən daha qəvi [güclü] və daha hazır olaraq Sinadadır və bu düşmənə incizab qeyri-qabili-ehmaldır [bu düşmənə doğru çəkilmək ehmal edilməsi mümkün olmayan bir şeydir].*

*Saniyən [ikincisi], maddətən də [maddi olaraq da] imkan və qüvvət yoxdur. Bu işə təşəbbüs edəcək orduların bugünkü mövcudları pək zəif və qüvvətsiz olub, daha iki ay yürüdükdən sonra bir az mübaliğəsi ilə xədəmədən [xidmətçilərdən] ibarət bir kütlə qalar.*





*Düşmənin Bağdadda şöməndüfər [qatar] və gəmilərlə gətirib yetişdirəcəklərinə şaxturla [qayıqla] və dəvə ilə müqabilə ediləmməz. Vəlhasil, bu ədəmi-imkanlara [imkansızlıqlara] ən böyük dəlil aylardan bəri bir alayı iki gün yürüdə biləcək hazırlıqların əlan [hələ] vücuda gətirilməmiş olmasıdır.*

*4) Bu müxtəsər nəzəri-ümumidən nəticeyi-istidlalım [çıxardığım nəticə] və məqsəd, "artıq hər iş bitmişdir və bulunacaq bir çarə qalmamışdır" zəminində deyildir. Böylə bir qənaəti-bədbinanə düşmənlərin və təhlükələrin ən vəximi [dəhşətlisi] olduğunu izaha hacət görməm. İmkani-xilas və həyat mövcud olub, ancaq tədabiri-saibəni [doğru tədbirləri] bulmaq [lazımdır].*

*Acizlərinə görə [acizanə, mənim qənaətimə görə], bu gün təqib olunacaq qərarlar bərvəchi-ati [aşağıdakı kimi] olmalıdır."*

(Bitmədi)

*Həftə felyetonu*

**TƏRBİYƏ**

Kərim ağa hənuz çocuq ikən "kübarlıq" əlamətləri göstərir və ailəsinin, daha doğrusu, jaketində [pencəyində] parlaq mə'dəni [metal] düymələr daşıyan "çinovnik" bəradərinin [qardaşının] təlim və tərbiyəsi üzərinə soqağın səfil çocuqları ilə qonuşub-əylənmədən mümkün qədər çəkinirdi.

Fəqət Kərim ağa nə qədər "kübar" bir ailəyə mənsub idisə də, mühitin təsirindən qaçammayacaqdı və bunun üzərinə onun çocuq yaşını da inzimam [əlavə] etdikdə, təbiidir ki, o qonuşmaq və oynamaq üçün kəndisinə arxadaş arayacaqdı.

İştə, məsələnin ən müşkül cəhəti də burası idi. O, böyük bəradərinin tənbehinə rəğmən tərbiyəsiz "Asiya" çocuqlarına qoşulmağa qorxur və "alafranqa" [Avropa tərzində] tərbiyə görmüş çocuqlar da kiçik müsəlman şəhərində yox idi. Məməfih [bununla belə], Kərim ağa qardaşının məmuriyyətində (naçalnik dilmanclığında) olduğu vaxtlardan istifadə ilə qonşu çocuqları ilə oynayır, qoşur və qardaşı evə gələcəyi zamanlara yaxın, hər yerdə olsaydı, evə tərəf tələsirdi. Annəsi isə Kərim ağanın sıxılmasını istəmədiyindən, kiminlə olursa onun qonuşub oynamasına zidd deyildi. Fəqət böyük oğlundan o da bir az ehtiyat edirdi və o, evə gələrkən şaki [şikayət edən] bir lisanla: "Çocuğum pək sıxılır. Heç bir qonuşub-əylənəcəyi arxadaşı yox. Qorxuram çocuğum dərdə düşə. Bu fikir məni ziyadə düşündürür" – deyə Kərim ağanın xatiri üçün yapdığı "intizamşikənliyi" [qayda-qanunu pozmasını] söylədiyi yalan ilə təsviyəyə [aradan qaldırmağa] çalışırdı.

Bir dəfə Dürnisənin oğlu Cəfər bəy xidmətində "iş düzəltməsi" sayəsində qoluna düşdüyü yağlı "tikə"dən porsiyonundan [yeməyindən] ziyadə şəraba təxsis etmiş [ayırmış] və adətindən dişarı sərxoş olaraq evə tez qayıtmağa məcbur olmuşdu.

Dürnisə oğlunun böylə "kefi kök" zamanlarından çox qorxurdu. Zira o, sərməst olarkən daima heç şeydən bir

şey çıxarmağa bəhanə arardı. Şimdi Kərim ağanın qiyabı [yoxluğu] isə onun iztirabını daha da artırmış idi.

Bədbəxtanə olaraq Kərim ağanın bu dəfə ağlaya-ağlaya mərdivəndən qalxması Cəfərin guşi-diqqətini cəlb etmiş [diqqət qulağını cəlb etmiş, qulağına çatmış] və uzanmış olduğu qanapə [divan] üzərindən büdrəyə-səndirləyərək Kərim ağanı “istiqbal” [qarşılamaq] üçün balkona (şəhnişin) çıxmışdı.

“E osuuu” deyə söz tutmaz dili ilə Cəfər bəy bağırmağa başladığı zaman annəsi yetişmiş və “şöylə oldu, böylə oldu...” söyləyərək iz azdırmaq istəmişsə, artıq işin üstü açılmış və Kərim ağanın parçalanmış jaketi işin nə üzlü olduğunu Cəfərin sərxoş gözlərindən də olsa, kətm edəmməmişdi [gizləyə bilməmişdi].

Cəfər bəyin çamurlu [palçıqlı] əlbisəsini təmizləməklə məşğul olan Liza işbu qeylüqalı eşitcək kəndisini tezcə “məhəlli-hadisəyə” [hadisə yerinə] yetirmiş və Cəfər bəy üçün ayaqlarını yerə döyərək onu oda içərisinə çəkmiş və şu surətlə məstanə gurultu-patırdını bərtərəf etməyə [aradan qaldırmağa] müvəffəq olmuşdu.

Və bu vəqə Kərim ağanın həyatiatiyyəsində [gələcək həyatında] böyük rol da oynamışdır.

* * *

Yeddi sənədən ziyadə Lizanın Bakıdakı böyük həmşirəsi [bacısı] evində yaşayaraq gimnaziyaya davam edən Kərim ağa artıq çocuqluq düşüncələrini, böyük qardaş kimi işıqlı düymə daşımaq əməlini [arzusunu] tərk etmiş, fəqət daha “ciddi”, daha “yüksək” əməllər [arzular] bəsləməyə başlamış və bütün fikir və zehnini sərvət toplamağa vermişdi. Onun üçün də yeganə vasitə olaraq qumar oynamağı məqsədəmüvafiq bulmuş və dərslərdən ziyadə ona həsri-övqat edərək [vaxt sərf edərək] bəzli-“hümmət” etməyə [“səy” göstərməyə] alışmışdı.

Fəqət nə səbəb vardısa, tale Kərim ağanın üzünə ibtisam [təbəssüm] etməyir və onun dürlü “vəsait” ilə [müxtəlif vasitələrlə] əldə etdiyi parasını insafsız həriflər bir saat içində əlindən alır və yenə onu məyus və müztərib [iztirab çəkən] edirlərdi. Kərim ağa iki sənə ardardınca bir sinifdə qalmasına baxmayaraq, artıq qumardan əl çəkməyi bacarmayırdı.

İştə bu tövr ilə inqilabın əvvəlinci sənəsi təhsilini bitirə bilmiş Kərim ağa bir tələbədən ziyadə mahir bir qumarbaz olaraq məktəb qapısından çıxmışdı.

* * *

Bütün vaxtını qumarxanalarda keçirən Kərim ağa cərəyani-hadisata və vəziyyəti-siyasiyyəyə yabançı olduğu kimi ondan heç xoşlanmaz və bütün cahan siyasətini kəndi təbirincə bir “9-luğa” dəyişmək istəməzdi...

“Kübar” ailədən doğduğu [doğulduğu] və “konservativ”, daha açıq təbir [ifadə] ilə, çarı “zillullah” sanan bir evdə tərbiyə aldığı üçün inqilabçılara lənət oxur və inqilaba Kərim ağa əmiq [dərin] bir nifrət edirdi. Azərbaycan nə olduğunu isə o nə anlar və nə də anlamaq istərdi...

Fəqət o, Azərbaycanı anlamaq istəməyirdisə də, Azərbaycan onun fəci [faciəli] günlərində dadına qoşmuş və puldan lüt zamanında əlini uzadaraq ona zəhir [kömək] olmuşdu, yəni dövlət müəssisələrinin milliləşdirilməsi sayəsində onun öhdəsinə də layiqli bir məmuriyyət tövdi edilmişdi [tapşırılmışdı]. Kim nə bilirdi ki, Kərim ağa nasıl bir vücuddur. Onun kim olduğu alnında yazılmamışdı ki, böylədir, ya şöylədir. Kəndisinin müsəlmanlığı və təhsil görmüş, bir dəliqanlı olması şu əhliyyəti [etibarı; səlahiyyəti] kəndisinə kəsb etdirirdi [qazandırırdı].

Fəqət Kərim ağa Azərbaycanın bu müşfiqanə inayət [lütüfkarlıq] və etimadından sui-istifadə edərək kəndisinin “sərvət toplamaq” planını fikirdən feilə çıxarmaq istəmiş və mövqeyindən sui-istemallara [sui-istifadələrə] başlamışdı. Şimdi bir az zaman irəli ehtiyac içində yaşayan Kərim ağa hər gecə minlərcə rublə qumara uduzmasına baxmayaraq, kəndisi üçün xüsusi araba almış və bir çox sərvətlilər üçün mümkün olmayan ziqiymət [bahalı] şeyləri az zaman içində ələ gətirməyə “müvəffəq” olmuşdu. Kərim ağanın günahı məhkəməcə isbat edilməmişdisə də, o, ən ali iki məhkəmədən: vicdan və əfkari-ümumiyyə [ictimaiyyət, xalq] məhkəmələrindən bəraət qazanammamışdı.

*Əlif.*

## VÜKƏLA ŞURASINDA
## [NAZİRLƏR KABİNETİNDƏ]

Ticarət və Sənaye nazirinin toluol zavodu təmirindən ötrü para təxsisi [ayrılması] haqqındakı təqriri isteması [rəsmi məktubunun dinlənməsi] nəticəsində 70 milyonluq fonddan 1 milyon 300 min manat buraxılması qərara alınmışdır.

* * *

Maliyyə nazirinin Bakı Bələdiyyə İdarəsinin buraxılacaq 50 milyon daxili istiqraz qanununun bir para maddələrinin dəyişməsinə aid təşəbbüsatı haqqındakı təqriri isteması nəticəsində qərara alınmışdır:

Bakı Bələdiyyə İdarəsi tərəfindən buraxılacaq 50 milyonluq daxili istiqraz haqqındakı hökumətin işbu sənənin 20 ağustos qərardadının I, II, III-cü maddələri dəyişsin:

1) Biletlərin satışından hasil olacaq pullar Azərbaycan Dövləti Bankı hesabicariyyəsinə daxili edilir, belə ki, % istiqrazın icrası günündən hesab olunur. Həman istiqrazın icrası günündən işbu hesabati-cariyyə üzrə sənəlik dörd faiz hesab olunacaqdır. İşbu hesabati-cariyyə üzrə qanundakı göstərilmiş maddələr məsarifatı üçün pul almaq olar.

2) İstiqraz fəqət Maliyyə Nəzarəti ilə Bələdiyyə İdarəsi miyanındakı etilaf [arasındakı razılaşma] hasil olan günədək biletlərin ¼ hissəsi, yəni 12,500,000 manatlığı satılacaq gündən icra olunmuş hesab olunur. İstiqrazın icra olunmuş hesab olunacaq gününədək satışdan hasil olmuş pullar bu qanun üzrə Azərbaycan Dövləti Bankına veriləcək. Pullar heç bir şərait üzrə Bələdiyyə İdarəsinə veriləmməz. Hərgah məzkur [deyilən] vaxtadək satışdan hasil olacaq pulun miqdarı 12,500,000 manatdan əskik olarsa, istiqraz icra olunmamış hesab olunacaq, pullar Maliyyə Nəzarəti tərəfindən sahiblərinə qaytarılacaqdır.

3) Bir gün satılmış biletlərin nömrəli hesabı tərtib verildikdən sonra tiraj günündən bir gün müqəddəm [qabaq] möhürlənmiş olacağı müəssisələrdə sax-

lanmalıdır. İşbu siyahılar Bələdiyyə İdarəsi tərəfindən təsdiq edilib, Azərbaycan Dövləti Bankına göndərilir; Maliyyə Nəzarətinin İstiqraz şöbəsi, Daxiliyyə Nəzarəti və Bələdiyyə İdarəsi əhalinin görəcək yerlərində asmalıdırlar.

## AZƏRBAYCAN SÜLHİ-ÜMUMİ KONFRANSINDA

**(Heyəti-mürəxxəsə əzasından Məhəmmədhəsən bəy Hacınski cənablarının məruzəsi)**
**- 1 -**

Məlum olduğu üzrə, Azərbaycan Cümhuriyyəti tərəfindən Sülhi-Ümumi Konfransına ezam edilən heyəti-mürəxxəsə əzasından [nümayəndə heyəti üzvlərindən] Məclisi-Məbusan üzvü Məhəmmədhəsən bəy Hacınski cənabları əxirən [bu yaxınlarda] Parisdən paytaxtımıza varid olmuşdur [gəlmişdir].

Müşarünileyh [adı çəkilən şəxs], heyəti-mürəxxəsənin Sülhi-Ümumi Konfransı ətrafındakı məsai [çalışma, səy] və təşəbbüslərindən bahis olaraq [söz salaraq] keçənlərdə Parlamanın "Müsavat" və "Sosialistlər" fraksiyonuna müfəssəl bir məruzə verib, Avropa məhafili-siyasiyyəsinin [siyasi dairələrinin] Azərbaycan haqqındakı əfkar [fikirlərini] və mülahizələrini izah və bəyan eyləmişdir ki, bərvəchi-ati [aşağıdakı kimi] təxsis ediriz:

**Heyəti-mürəxxəsənin Batumdan əziməti**

Keçən il dekabr ayında Bakıdan Batuma mütəvəccihən [doğru] hərəkət və əzimət edən [yola düşən] və Məhəmmədhəsən bəy Hacınski, Əhməd bəy Ağaoğlu, Əkbər ağa Şeyxülislamov, Məhəmməd əfəndi Məhərrəmov, Miryaqub Mehdiyev və Ceyhun bəy Hacıbəylidən ibarət bulunan heyəti-mürəxxəsə əza və mənsubini [mənsubları] ingilis paraxodu ilə ingilislərin iltifat və mərasimi-məxsusələri ilə Batumdan İstanbula əzimət etmişlərdir.

**Heyəti-mürəxxəsə İstanbulda**

İstanbula müvasilət edən [çatan] Azərbaycan heyəti-mürəxxəsəsi İstanbulun o zamankı fəlakət və hüznəngiz [kədərli, hüzünlü] vəziyyətindən çox mütəəssir olmuşdur. İstanbulda heyəti-mürəxxəsəni intizar edən [gözləyən] Məclisi-Məbusan və heyəti-mürəxxəsə rəisi Əlimərdan bəy əfəndi Topçubaşov cənabları heyəti-mürəxxəsəyə iltihaq edərək [qoşularaq], siyasi təşəbbüs və fəaliyyətlərə başlanılmışdır.

Fəqət bu əsnada düşmən mətbuat Əhməd bəy Ağaoğlu haqqında təhrikamiz [təhrikedici] nəşriyyata başlayıb, dolayısı ilə də heyəti-mürəxxəsə barəsində sui-təfəhhümlər [yanlış anlaşılmalar, yanlış fikirlər] çıxarılmışdır. Əhməd bəy Ağaoğlu Qafqaziyada ermənilərlə müsəlmanlar arasında niza [çəkişmə] və düşmənliklər iqa edilməsinə [yaradılmasına] amil olduğu və Qarabağda, Şuşada erməni-müsəlman vuruşmasının səbəbi bulunduğu yazılmış və buna bənzər iftiralar, kəza [həmçinin] Əlimərdan bəy Topçubaşov haqqında nəşr edilmişdir.

Digər tərəfdən Etilaf [Antanta] qəzetələri Əhməd bəyin "İttihad və Tərəqqi" firqəsinə mənsub olmasını və "İttihad və Tərəqqi"nin aləti olduğunu elan edərək, o zamankı Türkiyə hökumətinin suizənnini [mənfi münasibətini] cəlb etmişlərdir. Bunun üzərinə Əhməd bəy Ağaoğlu heyəti-mürəxxəsədən ayrılmaqla, hökumət tərəfindən də tövqif [tutulmuş] və həbs olunmuşdur.

Digər tərəfdən, heyəti-mürəxxəsə İstanbuldan Parisə əzimət etmək üçün İngiltərənin İstanbul Baş komissarlığı nəzdində təşəbbüsü bir zaman cavabsız qalmış, Londradan, Parisdən sual edilməyə lüzum görülmüşdür. Londra müvafiqət etdiyi [uyğun gördüyü] halda, Parisin müvafiqət eyləmədiyi söylənilmiş və nəticədə məsələ mütəəlliq [havadan asılı] bir şəkil almışdır.

Heyəti-mürəxxəsənin ən son bir təşəbbüsü üzrə İtaliya, heyətin Roma təriqi [yolu] ilə Parisə getməsinə müsaidə etmiş və kamali-məmnuniyyətlə heyətə zəhir [dəstək] olaraq İtaliya vaporları ilə əzimətlərinə imkan vermişdir. Bunun üzərinə heyət İstanbuldan İtaliyaya mütəvəccihən əzimət etmişlərdir.

**Heyəti-mürəxxəsə Romada**

Heyəti-mürəxxəsə İtaliyaya müvasilət etdikdən sonra doğruca Romaya getmişlərdir. Romada heyəti-mürəxxəsə böyük bir hüsn-qəbul görmüşdür. Heyət Roma Məclisi-Məbusanı rəisi cənabları ilə mülaqat [söhbət] edib, İtaliyanın Azərbaycan istiqlaliyyətinə xeyirxah olduğunu və bu xeyirxahlığını icab edərsə [lazım gələrsə] göstərməyə hazır bulunduğunu bəyan etmiş və heyət təzim və təşəkkürlər edərək müqabilə etmişdir.

Bundan sonra Romada heyəti-mürəxxəsə bir çox İtaliya rical və siyasiyyunu [dövlət və siyasi xadimləri] ilə görüşüb Azərbaycan haqqında tarixi, iqtisadi, milli məlumatlar vermişlər və ricalı pək ziyadə əlaqədar etmişlərdir [maraqlandırmışlar].

Bundan sonra heyəti-mürəxxəsə İtaliyadan Parisə əzimət etmək üçün lazım gələn təshilatı [hazırlıqları] görmüş və qayət əlverişli bir şərait ilə yola çıxmışlardır.

**Heyəti-mürəxxəsə Parisdə**

İtaliyadan müfariqət edən [ayrılan] heyəti-mürəxxəsə Parisə müvasilət edib, doğruca Şanjelizedə vaqe [yerləşən] böyük bir hotelə nazil olmuşdur [düşmüşdür]. Heyəti-mürəxxəsəmizi Parisdə dəxi ibtidai-əmrdə [başlanğıcda] düşmən provokasiyonu istiqbal eyləmişdir [qarşılamışdır].

Paris mətbuatı, bədxahlarımız mənabeyindən [mənbələrindən] aldığı tərəfgiranə xəbərləri nəşr edərək, Qafqaziya müsəlmanları və Azərbaycan haqqında cürbəcür böhtanlar çıxarmışlardır. O zaman bu təftinlərə [fitnəkarlıqlara] qarşı müqabilə etmək heyətcə müşkül olmuş və vəziyyət də buna müsaidə edəməmişdir. Fəqət bir zaman sonra əhval bir az tənəvvür etdiyi [aydınlandığı, işıqlandığı] kimi, heyət fəaliyyəti-siyasiyyəsinə başlamışdır.

Bu əsnada Parisdə bulunan Amerika Rəisi-cümhuru Vilson cənabları ilə heyəti-mürəxxəsə görüşmək arzu eyləmiş və Rəisi-cümhur nagəhani [gözlənilməz] denilə biləcək bir surətdə heyəti öz dairəsinə dəvət edərək uzun-uzadıya görüşmüşdür.

Vilson cənabları heyəti-mürəxxəsədən Azərbaycan haqqında tarixi, etnoqrafi, iqtisadi və siyasi məlumat istəmiş və mürəxxəslərimiz tərəfindən verilən hər cür məlumatı kamali-diqqət və əhəmiyyətlə istema etmişdir [dinləmişdir].

Amerika Rəisi-cümhuru heyətdən, zəki bir siyasi kimi sorduğu suallara öz tərəfindən bir mütaliədə bulunmuşdur [fikir bildirmişdir] ki, o da Qafqaziya cümhuriyyətlərinin ayrı-ayrı olmasından ziyadə, müttəhid [birgə] və müttəfiq bir konfederasyon idarəsi altında olmalarının daha müvafiq bulunmaları haqqındakı mütaliədir.

Çünki – Vilsonun fikrincə – kiçik cümhuriyyət və hökumətlərdən ziyadə əsri-hazır [müasir dövr] böyük və müttəfiq hökumətləri yaşada bilməyə imkan verməkdədir.

Binaənileyh [ona görə], Qafqaziyada bir konfederasyon olmasını və bu konfederasyonun da Rusiya ilə irtibatını [əlaqədar olmasını] istəmişdir. Heyət bu axırıncısı haqqında qayət əsaslı cavablar verib, ancaq Qafqaz konfederasyonuna şərik ola biləcəklərini bəyan etmişlərdir.

Vilson bir daha heyətlə görüşmək vədi üzrə vida etmişdir.

Bundan sonra heyəti-mürəxxəsəmiz siyasi fəaliyyətini daha da artırıb, Fransa məhafili [dairələri] ilə sıxı bir rabitəyə girişmiş və Fransa Xariciyyə Nəzarəti Qafqaziya ümuruna [işlərinə] vəkil bulunan müsyö Erberq ilə kəsbi-əlaqə etmişdir [əlaqə qurmuşdur].

Müsyö Erberq heyətə, Fransanın Rusiya ümuruna nə nəzərlə və nə kimi mənafe ilə baxdığını bildirmiş və bəzi siyasi təkliflərdə bulunmuşdur.

Heyət bu təklifləri uzun-uzadıya mütaliə etdikdən [fikirləşdikdən, qiymətləndirdikdən] sonra, lazım gələn cavabları vermiş və bu təşəbbüs müvəffəqiyyətlə keçmişdir.

Digər tərəfdən, Parisdə bulunan "İttihadi-İslam" fransız cəmiyyəti dəxi heyətə bir çox işlərdə zəhir [dəstək] olub, gərək Xariciyyə Nəzarəti nəzdində və gərəksə Məclisi-Məbusanda Qafqaziya məsələsini qaldırmışdır.

Heyət Paris məhafili-siyasiyyəsində hər tərəfdən hüsn-qəbullar görməyə fürsət bulmuş və Paris mətbuatı, başda "Tan" qəzetəsi olduğu halda, Azərbaycan heyəti-mürəxxəsəsinin informasiyonlarını nəşr etmişdir.

Bədxahlarımız[ın] bundan sonra təhrik və təftinləri əhəmiyyətsiz qalmışdır.

Digər tərəfdən heyəti-mürəxxəsə mürəvvici-əfkar [fikirlərini yayan orqan] olmaq üzrə jurnallar nəşr etməyə başlamışdır. Bunlardan biri yalnız Azərbaycan üsuli-siyasiyyəsinə aid olmaq üzrə "Bülleten İnformasiyon Azərbaycan" ünvanı ilə jurnaldır ki, hər ay nəşr edilməkdədir.

Heyəti-mürəxxəsə kiçik kitabçalar dəxi nəşr edib, Azərbaycanın əhvali-siyasiyyə, irqiyyə və iqtisadiyyəsinə aid məlumati-mükəmmələ verilmişdir.

Heyəti-mürəxxəsə ilə birlikdə Azərbaycan sosialistləri dəxi işləməkdə olub, Fransa sosialistləri miyanında [arasında] Azərbaycan hüququnu tanıtdırmağa bəzli-qeyrət və səy etməkdədirlər [cəhd etməkdə, səy göstərməkdədirlər].

Heyəti-mürəxxəsə Gürcüstan heyəti-mürəxxəsəsi ilə daima birlikdə işləyib, hər siyasi təşəbbüslərdə müştərəkən hərəkət etməkdədirlər.





Heyəti-mürəxxəsə bundan sonra İngiltərə ilə münasibata girişmişdir. Parisdə ingilis səfiri cənabları heyəti-mürəxxəsəni qəbul edərək mültəfitanə [iltifatlı] sözlər söyləmiş və: "Möhtərəm əfəndilər, bulunduğunuz bu salonda bir zaman böyük Napoleon Bonapart da qəbul edilmişdir" kimi səfir tərəfindən mütəntən bir mühavirə [təntənəli bir söz] də vaqe olmuşdur. Səfir ilə Azərbaycan heyəti-mürəxxəsəsinin böylə rəftarı ingilis-Azərbaycan əlaqəsinə gözəl bir təsir hüsula gətirdiyi kimi, başqa vəsilələri [yolları, vasitələri] də açmağa imkan vermişdir.

Daha sonra Azərbaycan heyəti-mürəxxəsəsi ilə digər Rusiya və Qafqaziya cümhuriyyətləri arasında ciddi bir əlaqə və münasibat da başlayıb, müştərək və müttəhid [birgə] hərəkətlər olmuşdur. Bu cümlədən Qafqaziya cümhuriyyətləri birlikdə Parisdə böyük bir mitinq yaparaq, Qafqaziya millətlərinin hüquqi-milliyə və siyasiyyələri haqqında ciddi və hərarətli nitqlər söylənilmiş və Azərbaycan heyəti-mürəxxəsəsindən də iştirak edilib, fransızca nitqlər irad etmişlərdir [söyləmişlər]. Paris mühiti bundan sonra Azərbaycan və Qafqaziya cümhuriyyətləri haqqında diqqət və əhəmiyyət verməyə başlamışlar və bilxassə [xüsusilə] Azərbaycan türklüyünə dair xəbərlər məlumat bilmək həvəsinə düşmüşlərdir.

**QEYD**

"Azərbaycan" qəzetəsində Fərhad Ağazadə cənabları Məhəmmədəli Kazım[ın] tərcümeyi-halını söylədiyi yerdə, "Müxtəsərül-vəqayə" kitabını onun əsəri demiş. Dürüstü isə Məhəmmədəli əfəndi "Müxtəsərül-vəqayə"ni Altun Orda xan Buhayxan iltiması [xahişi] ilə Kazan şəhərində təb qıldırmış [çap etdirmiş] və kitabın əvvəlində ərəbi olaraq bir məqalə də yazmış. "Müxtəsərül-vəqayə"nin ismi "Ən-nüqayə fil-müxtəsərül-vəqayə" olub, fiqhi-hənəfidə qayət məqbul [bəyənilən, qəbul edilmiş] bir kitabi-lətifdir. Onu bilməyən hənəfi də yoxdur desəm, xəta olmaz. Farisiyə də tərcümə edildiyi kimi, Kazan türkisinə çox mütərcimlər tərəfindən tərcümə edilmişdir.

Kazanda təkrar təb edilmişdir, müəllifi isə Buxarada vəfat olan Sədrüş-şəriətüs-sani Übeydullah bin Məsud cənabları da Buxarada Axund xan deyə mərufdur [tanınmışdır]. Qəbiri də Buxarada Şər'abad nam yerdədir.

Übeydullahın anası tərəfindən olmuş cəddi [Bürhanüşşəriə] Mahmud [əl-Buxari] fiqhi-hənəfidə [hənəfi məzhəbinə görə şəriət hüququnda] məruf hüvə-bih [o, adı çəkilən] kitabı ixtisar edib, "Vəqayətür-rəvayə fi-məsailil-hidayə" nam qoyub, məzkur [haqqında danışılan] Übeydullah üçün təlif etmişdir [yazmışdır].

Sonrası Übeydullah "Vəqayə"ni ixtisar edib "Vəqayə"yə qayət mötəbər bir şərh də yazmışdır ki, "Şərhi-vəqayə" deyə məşhur; üsulül-fiqhdə [şəriət hüququ üsulunda] mötəbər olan "Tənqih" kitabı və onun şərhi "Tövzih" cümlə üləmayi-hənifə namında [bütün hənəfi məzhəbi alimləri üçün] mötəbər, Ərəbistan və Hindistan və Məvəraünnəhr və Kazan ətrafında minnətdari ilə mətbudurlar [minnətdarlıqla çap edilir]. Cümləsi də məzkur Abdulla əsəridir. Bundan başqa "Tədilül-ülum" nam əsəri də var-

dır, fəqət mətbu olmasa gərək. Rəhmətullahi-təala rəhmətən-vasiə.

*Rusiya el müəllimlərindən*
*Abdulla əl-Məazi*

## BAKI XƏBƏRLƏRİ

**Fəhlə həyatından**

Tağıyev fabrikasında Zavod Komitəsi intixabından naşi [seçkisindən ötrü] çıxmış ixtilafı bərtərəf etmək [aradan qaldırmaq] qəsdi ilə Məsai Nəzarəti [Əmək Nazirliyi] tərəfindən ittixaz edilmiş tədabirin [görülmüş tədbirlərin] hələlik nəticəsi bəlli olmamışdır. Sabiq Komitənin əzasından [üzvlərindən] Cəbi, Muxtar, Əbdüləli, Mahmud və Rza polismeyster tərəfindən həbs edilmişlərdir.

Dün Tağıyev fabrikası xidmətçiləri (müsəlman qadınları ilə bərabər) Məsai Nəzarəti qarşısına toplanıb, tövqif edilmişlərin [tutulanların] buraxılmasını rica etmişlərdir.

**Bələdiyyə İdarəsində**

Azərbaycan Xüsusi Qaubiç batareyası komandanı vaxtilə Bələdiyyə İdarəsinə müraciətlə, Bayıldakı batareya qışlalarına [kazarmalarına] elektrik xətti çəkməyi rica etmişdi. Xətt çəkildiyindən, Bələdiyyə İdarəsi təşəbbüsü nəticəsiz buraxmağı komandana xəbər vermişdir.

**Şollar suyu**

Daxiliyyə Nəzarəti Bələdiyyə İdarəsinə müraciətlə, “Müsavat” firqəsinin Ərəb Həmyə köyünə Şollar su yolu çəkmək haqqındakı təşəbbüsatına tezliklə cavab verməyi rica etmişdir.

**Şəhər əmvalının oğurlanması**

Daxiliyyə Nəzarəti Bələdiyyə İdarəsinə müraciətən, Xudat mövqifi [stansiyası] yanındakı şəhər əmvalının [mallarının] ağustosun 18-dən sonra oğurlanıb-oğurlanmamasını isticvabda bulunmuşdur [soruşmuşdur].

**İclas**

İşbu təşrini-saninin [noyabrın] 15-i axşam saat 6 yarımda Maliyyə şöbəsi ilə Bələdiyyə İdarəsinin müştərək iclası təyin edilmişdir.

İclasda:

1) Mixayloviski soqaqdakı şəhər evinin icarəyə verilməsi;

2) Su yolları məxaricatı büdcəsi;

3) Şəhər sallaqxanasının bağırsaq təmizləyən 5 şöbəsinin icarəyə verilməsi;

4) Cari məsələlər müzakirə ediləcəkdir.

**Vergi**

Bələdiyyə İdarəsinin Kontrol şöbəsi Bələdiyyə İdarəsinə məlum etmişdir ki, işbu 1919-cu sənədə qərara məbni [əsasən] hambal və qəzetə satanlardan 25 manat şəhər nəfinə [xeyrinə] vergi alınmalı idi, halbuki bu vaxtadək alınmamışdır. Şöbə tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

**Mixaylovski xəstəxanada**

Mixaylovski xəstəxanada hal-hazırda buxar sobaları qayırılmaqdadır. Sobalar üçün Musa Nağıyevin yanmış evindən çıxarılmış əski borular işlədilir.





Kontrol şöbəsi boruların yanmış olduğu, bir sənə havada qalıb xarab olmasından naşi [ötrü] xəstəxana baraklarında hadisat baş verə biləcək ehtimalı ilə boruların işlədilməməsi haqqında tədabiri-lazimə ittixazını [lazımi tədbirlərin görülməsini] rica etmişdir.

**Yeni kitab**

Müsəlman yazıçılarından Aslan bəy Kriçinskinin yazmış olduğu “Rusiyanın siyasəti” nam [adlı] kitabı təbdən [çapdan] çıxıb satışa qonulmuşdur. Kitabın qiyməti 65 manatdır.

**Yeni şəhər**

Ərazi Nəzarəti Göyçay qəsəbəsinin şəhər adlanması haqqında Daxiliyyə Nəzarətinə bir məruzə təqdimlə, tədabiri-lazimə ittixazını rica etmişdir.

**Azərbaycan Dövləti nişan və Milli himni**

Maarif Nəzarəti Azərbaycan Dövləti nişan [Dövlət gerbi] və Milli himni haqqındakı kəndi nəzəriyyatını hökumətə təqdim etmişdir.

Dövləti nişan hazırlanması məşhur rəssam [Aleksandr Konstantinoviç] Şervaşidzeyə tapşırılır. Milli himn hazırlanması üçün müsabiqə elan ediləcəkdir ki, son vaxtı 1920-ci sənəsinin 1 fevralı elan edilməlidir. Birinciliyi qazanana 15,000 manat mükafat veriləcəkdir.

**Ermənistan-Azərbaycan Konfransı**

Dünənki gün Azərbaycandakı Ermənistan diplomasi nümayəndəsi Xariciyyə naziri Cəfərova xəbər vermişdir ki, təşrini-saninin 20-də çağırılacaq Ermənistan və Azərbaycan konfransına Ermənistan hökuməti öz rizasını ona bildirmişdir və bu konfransa Ermənistan hökuməti tərəfindən intixab edilmiş [seçilmiş] olan üç nümayəndənin birisi T. A. Bekzadyandır, qalan iki nəfərin kim olacağı öz vaxtında məlum edilməlidir.

**Ermənistan konsulxanaları təşkili**

Ermənistan hökuməti qət etmişdir ki, xaricədə Ermənistan Cümhuriyyəti tərəfindən konsulxanalar təşkil edilsin.

Binaənileyh [ona görə], Ermənistanın Azərbaycanda olan diplomasi nümayəndəsi Bekzadyan Azərbaycan Cümhuriyyəti Xariciyyə Nəzarətinə müraciətlə rica etmişdir ki, Gəncədə və Lənkəranda Ermənistan hökuməti tərəfindən konsulxanalar və Qazax, Nuxa və Şamaxıda konsul acentələri təyin edilməsinə Azərbaycan Cümhuriyyəti tərəfindən mümaniət [maneəçilik] olub-olmadığı xüsusda ona cavab versin.

**Ermənistan nümayəndəsinin getməsi**

Dünənki gün axşam kəndi xidməti işlərindən ötrü Ermənistan diplomasi nümayəndəsi Bekzadyan Tiflisə azim olmuşdur [yola düşmüşdür].

## BİRJADA

Kerenski minlik 850-990 manata qədər, 250-lik kəndi qiymətindən 15 faiz və xırda 25 faiz əskikdir.

Nikolay 5 yüzlüyü 800-1650 manata qədər, yüzlüyü 200-340 manata qədər və xırdası 150-200 manata qədərdir.

Türkiyə kağız lirəsi 220 manat və Zaqafqaz bonu min manata 10 manat fəzlədir.

Türkiyə altun lirəsi 940 manat, altun onluq 1050 manat, imperial 750 manat və Avstriya altunu 2000 manatdır.

Gümüş manat 80 manat və xırda gümüş para 32 manatdır.

Bakı bonunun min manatı İranda 3 tümən 9 qrana olmuşdur.

Susinin topu 1020 manata gedir.

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR

### “Müsavat”

**Mənzil**

Hacıqabul tren yolu fəhlələri Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat”ın Hacıqabul şöbəsi vasitəsilə Bakı Mərkəzi “Müsavat”a müraciətlə rica etmişlər ki:

1) Fəhlələrin mənzilləri təmir edilsin və: 2) Mənzili olmayan fəhlələrə mənzil verilsin.

Mərkəz isə bu xüsusda Türüq və Məabir Nəzarətinə [Nəqliyyat və Rabitə Nazirliyinə] müraciət edərək, fəhlələrin ilticasını [xahişini] qəbul etmişdir.

**Xıllı şöbəsi**

“Müsavat”ın Xıllı şöbəsi artıq dərəcədə ciddiyyət və fəaliyyət göstərməklə bərabər, camaatın hər bir ehtiyacatına müavinət yetirməyi üçündür ki, “Müsavat”ın Mərkəzi İdarəsi həmin şöbədən izhari-təşəkkür etmişdir.

**Məhbus fəhlə**

Hacıqabul istasyonunda işləyən fəhlələrdən Xəlil namı həbsə almışlardı. İstasyon fəhlələri “Müsavat”ın Mərkəzi İdarəsinə müraciətlə, məzkurun [adı çəkilən şəxsin] azad edilməsini təmənna etdiklərindən, firqə bu xüsusda təhqiqat yapıb, məzkur məhbusun müqəssir olmadığını kəşf etmişdir. Binaənileyh, məzkur Xəlil həbsdən azad olmuşdur.

**İzhari-təşəkkür**

Dəmiryol müfəttişi Şahtaxtinksi kəndi vəzifəsində layiqincə ciddiyyət göstərməklə bərabər, Hacıqabul istasyonu fəhlələri ilə etdiyi mülayimət və xoşrəftarlığına cəhət, istasyon fəhlələri “Müsavat”ın Hacıqabul şöbəsi vasitəsilə kəndi izhari-təşəkkürlərini qəzetədə dərc edərək bu kimi əşxasın [şəxslərin] Azərbaycan Cümhuriyyəti daxilində daha da artıq olmasını Cənabi-Haqqdan istirham edirlər [istəyirlər].

**Şikayət**

Dükançılar “Müsavat” idarəsinə şikayət etmişlər ki, mülk sahibləri dükan kirayəsi haqqında onlara artıq dərəcədə əziyyət və azar etməkdədirlər. Böylə ki, gündə bir kirayənin artırılmasını tələb edib, razı olmayanları dükanlarından xaric etmək istəyirlər.

Firqə bu xüsusda fraksiyaya müraciətlə, təşəbbüsat edilməsini xahiş etmişdir.

Aldığımız məlumata görə, bu məsələ hökumət tərəfindən dükançıların nəfinə [xeyrinə] olaraq qət edilib [qərarlaşdırılıb], bu günlər elan ediləcəkdir.

**Fəhlələrin maaşı**

Necə ki məlumdur, Türk Ədəmi-





Mərkəziyyət firqəsi "Müsavat"ın 10 təşrini-sani iclasında Yusif Ziya [Talıbzadə] və [Məşhədi] Yusif İbrahimli əfəndilərə, bahalıq münasibətilə fəhlələrin maaşı artırılması haqqında Məsai [Əmək] naziri və hökumət nümayəndələri ilə müzakirədə bulunması mühəvvəl edilmişdi [tapşırılmışdı]. Binaənileyh [ona görə], məzkurlar [deyilən şəxslər] təşrinisaninin 12 və 13-də Məsai naziri Aslan bəy [Səfikürdski] ilə müzakirə edərək, fəhlələrin maaşları 50 faiz artırılmasını təklif etdikdə, nazir əfəndi bu xüsusda Bakı neft mədənləri sahibləri ilə müzakirə edib təklifini qəbul etdirməyi vəd etmişdir. Ayın 13-də isə Yusif Ziya ilə Yusif İbrahimli Rəisi-vükəla [Baş nazir] Nəsib bəy Yusifbəyli həzrətləri ilə də bu xüsusda müzakirədə bulunmuşlardır. Rəis həzrətləri söz vermişdir ki, Məsai Nəzarətindən bir əncam verilməzsə, bir həftəyə qədər bu xüsusda hökumət kəndisi təşəbbüsatda bulunub, fəhlələr maaşının 50 faiz artırılması ilə bərabər, ev kirayəsi, yol xərci və bu kimi məxaricin artırılmasını da dərc ilə qəbula keçirilməsini vəd etmişdirlər.

**Mədənlərdə iclas**

Şənbə günü təşrini-saninin 15-də Mədənlər mərkəzi “Müsavat”ın idarəsində bütün Balaxana mədən dairələri müsəlman fəhlələri nümayəndələrinin və “Müsavat” üzvlərinin iclası təyin edilmişdir.

Məsaili-yövmiyyə [gündəlikdəki məsələlər]:

1) 8 təşrini-sani iclası tərəfindən hökumətə ərzi-hal təqdim etmək üçün göndərilmiş nümayəndələrin məruzəsi;

2) Bu yaxınlarda dəvət ediləcək ümum firqə şöbələri nümayəndələri qurultayında iştirak etmək üçün şöbə üzvlərinin ədədinə bittənasüb hər 100 nəfərdən bir nəfər olmaq üzrə nümayəndələr intixabı [seçilməsi].

Qeyd:

1) Qurultay üçün nümayəndə intixabında fəqət [sadəcə] şöbənin “Müsavat” üzvləri iştirak edəcəklər;

2) Vaxt müsaid olmadığından, əvvəlinci iclas qanuni hesab edilib ikinci iclas çağırılmayacaqdır.

**Mücahidə bir qadın**

Keşlə köy sakinlərindən İzzət İsmayıl qızı nam [adlı] bir bisavad qadın kəndisinin ali hissiyyati-millisi sayəsində bir an aram etmədən, gecə-gündüz vətən və millətinin uğrunda ciddi bir surətlə çalışmaqdadır. Məzkurənin [adı çəkilən qadının] fəaliyyəti sayəsində Keşlə köyündə 100 nəfər üçün bir ünas [qızlar] məktəbi güşad edilmişdir [açılmışdır] və böylə bir məktəb də Əhmədli köyündə açılması haqqında hal-hazırda ciddü cəhd etməkdədir. Bundan əlavə olaraq, Keşlədə bir gecə kursu açılması haqqında təşəbbüsat etməkdədir. Dünkü gün müsəlman qadınlarına məxsus bir şəfqət bacıları kursu açdırılması üçün nərəyə müraciət edilsin deyə, Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat”ın Bakı Komitəsinə müraciət etdikdə, Komitə məzkurəni Əli paşa Şıxlinski həzrətlərinin yanına göndərmişdir.

Bu qadın əsgərliyə çağırılmayan kişilərin xüsusi zabitlər tutub nizam

öyrənməklərini nəzəri-diqqətə alaraq deyir:

– Bundan böylə görünür ki, bir vaxt hülul edə [gəlib çata] bilər ki, əsgərlərdən başqa hamı kişilərimiz də kəndi işlərini buraxıb da, vətən və millət uğrunda canlarını fəda etməyə gedərlər. Böylə olduqda, qadınlarımız üçün gərək şəfqət bacıları kursu açılsın ki, böylə bir zamanda bu qadınlar da yaralıların yaralarına məlhəm qoyub bağlamaqla vətənlərinə xidmət edə bilsinlər.

Bundan başqa bu qadın, vətən əsgərləri üçün qumaş toxudub əlbisə tikilməsindən ötrü qadınlara məxsus bir əl işi məktəbi açılması haqqında təşəbbüsat yapmaqdadır.

**Yeni şöbə**

8 məhərrəmdə Quşçu icması Künövşə qəryəsində [kəndində] Mehdiqulu Mehdi oğlunun sədarəti və Bibiqulu Məhəmmədcəfər oğlunun katibliyi ilə bir iclas açılmışdır. İclas Könövşə qəryəsində də Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın şöbəsi güşadını [açılmasını] qəbul etmişdir.

Binaənileyh [ona görə], şöbə idarəsinə Cəfərqulu Tağızadə sədr, Xəlifə Səfərəlizadə müavini-sədr, Salam Hacızadə katib, Camal Hacızadə xəzinədar və Ramazan Mirzə oğlu, Şükürəli Məhəmmədhəsən oğlu və Qulu Hüseyn Fəzləli oğlu idarə üzvlüyünə intixab edilmişlərdir [seçilmişlər].

**Maarif cəmiyyəti "Tərəqqi"**

Bu gün təşrini-saninin 14-də, axşam saat 4-də iranlıların maarif cəmiyyəti "Tərəqqi"nin adi idarə iclası təyin edilmişdir.

Məsaili-yövmiyyə [gündəlikdəki məsələlər]:

1) Təşrini-saninin 31-də "Ekspress" sinematoqrafında verilən tamaşanın varidatı;

2) Gecə kurslarına müəllim lüzumu;

3) Mövqeyi-tamaşaya qonulmaq üçün pyes intixabı [seçilməsi];

4) Məsaili-cariyyə [cari məsələlər].

**Cəmiyyəti-Xeyriyyədə**

**Yeni qaçqınlar vürudu**

Təşrini-saninin 12-də 15 nəfər Dərbənd və 12 nəfər İrəvan qaçqınları şəhərə varid olduqda [gəldikdə], Cəmiyyəti-Xeyriyyə tərəfindən təmin olunmuşlardır.

**Qaçqınlara himayət**

Qaçqınlardan Məcid Babaəli oğlunu Qurbanqulu Məhəmmədov, Əbdürrəzzaq Qəhrəman oğlunu Mehdiqulu Tağızadə və Çimnaz Rza qızını Mehdi Hacıyev evlərində saxlamaq üçün Cəmiyyəti-Xeyriyyədən götürmüşlərdir.

**"Yaşıl Qələm"**

Cümə günü axşam saat 6-da, Haşımovun Dum meydançasındakı evində Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın odalarında "Yaşıl Qələm" dərnəyinin ümumi iclası təyin edilmişdir.

İclasda mərhum Sabirin həyatı və tərcümeyi-halı oxunmaqla bərabər, bir neçə şeir təhlilləri oxunacaq, bununla bərabər, dərnəyə aid bəzi məsələlər də müzakirə ediləcəkdir.

*"Yaşıl Qələm" idarəsi*





**AZƏRBAYCANDA**

**Salyandan**

Xocabəyli quldurlarından məşhur Pişan nam, Biləsuvar pristavı Əbdüləhəd bəy Rəcəbov cənablarının tədabiri-ciddiyyanəsi [ciddi tədbirləri] sayəsində dərdəst edilib [tutulub], bu halda Salyan həbsxanasındadır.

Şu hərif inqilab zamanında vaxtdan fürsət edərək müsəlmanların üburgahlarını sədd edib [yollarını kəsib] müsafirlərin [səfərə gedənlərin] tamam paralarını, mətalarını [mallarını], hətta rəhm etməyib libaslarını belə alırdı. Kəndi məsləkdaşları ilə tamam yaxın kəndlərin heyvanlarını, sürülərini, ev müxəlləfatını [ev əşyalarını] qarət və yəğma etmişdir. Əhali qorxunc bir hal içində ömür keçirtdiyi halda, bir çox ailələri qışın soyuq gecələrində libassız və təamsız buraxmışdır. Məsum çocuqlar yataqlarında rahat uyumamışlar. Şimdi şu hərifin həmqəryələri [həmkəndliləri] (Xocabəyli) Pişan namın məhbusda olmasını eşidib Biləsuvar üstə gəlməklə, pristavdan intiqam və aqibət əhalinin əmvalını [mallarını] qarət etmək qəsdindədirlər.

Məzbur [adı çəkilən] pristav filfövr [dərhal] qəza qaimməqamına [qəza rəisinə] elam etdikdə [bildirdikdə], dünən 100 nəfərdən mütəcaviz [artıq] atlı və piyada, xainlər müdafiəsinə hərəkət etdilər.

Biləsuvar əhalisindən də şu quldurlar ilə mübarizə etməyə dəxi iştirak edəcəklər.

Biləsuvarda bu axır günlərdə artıq dərəcədə oğurluq olmaqdadır.

**Üç qız**

Kür Qaraqaşlı qəryəsində bir qadın üç qız doğmuşdur. Çocuqların vücudları sağlam olduğundan, surətən yek-digərindən [bir-birindən] azca fərqlidirlər. Vücudca qeyri-adi bir şey yoxdur. Bu halda üçü də salamat olub validələri təhti-tərbiyə və himayəsindədirlər [analarının tərbiyəsi və himayəsi altındadırlar]. Hələlik püstani-madər [analarının döşü] hər üç qönçəyə kifayət etmədədir.

*Salyanlı*

**Ağdaşdan**

Azərbaycan məmləkətində mövcud bütün kənd dairələrinə nəzəri-diqqətimizi cəlb edəcək olarsaq, Ağdaş və Ağdaş nəvahisi [ətrafı] qəryələrini gözüaçıq görürüz. İştə bu gözüaçıqlığın nəticəsidir ki, Ağdaşdan 6-7 verstlik bir məsafədə bulunan Kükəl nam kənddə işbu 1919 sənə noyabr ayının 2-ci günü məzbur [deyilən] kənd camaatının yüzbaşısı Malik Həsən oğlunun təşəbbüsü ilə möhtərəm kənd ziyalıları tərəfindən "Maarifpərvər" namında bir cəmiyyət açılmışdır.

Bütün kəndlərdə maarifin nə dərəcə geridə qaldığını düşünmüş olan bu cəmiyyətin məqsədi kəndlərində maarifə qiymət verərək, məzlum və biçarə camaatlarını cəhalət zülmündən təxlis [xilas] etmək babında çarələr aramaqdır. Camaatı bu zülmətdən təxlis ancaq və ancaq maarifə veriləcək qiymət və göstərilən həvəs sayəsində olacağını anlamışlardır ki, məsələn, məktəb tikdirmək, bütün kənd çocuqlarını məcburiyyət təhtində [altında] oxutmaqla kifayətlənməyib, mümkün mərtəbə daha

tez çocuqlarının təlim və tərbiyəsi üçün bir an əvvəl müəllimələr arayıb, qız məktəbləri açmaq kimi məqsədlər üzərinə işləməyə şüru etmişlərdir [başlamışlar].

Nə olardı ki, bütün kəndlərimizdə bu cür cəmiyyətlərin təsisinə səbəb olanlarımız olaydı.

Yaşasın millətin fəlakəti səbəblərini düşünən, buna çarələr aramaq üçün maarifin nəşr və tövsisinə [yayılmasına və genişlənməsinə] çalışan və bu yolda cəmiyyətlər açan kəndçi qardaşlarımız!

*Könüllü müəllimi:*
*Əhmədağa Əfəndili*

## GÜRCÜSTAN XƏBƏRLƏRİ

Gürcüstan hökumətinin axırıncı günlərdə bolşevik çıxışları haqqında təşrini-saninin [noyabrın] 11-də nəşr etdiyi təbliğati-rəsmiyyə:

24 təşrini-əvvəldə [oktyabrda] bir neçə nöqtələrdə baş vermiş cümhuriyyət düşmənlərinin çıxışı hökumət tərəfindən ittixaz edilmiş tədabir sayəsində və əhalinin böylə çıxışlara düşmənanə nəzərlə baxdığından, öz vaxtında təsviyə edilmişdir [aradan qaldırılmışdır]. Buna baxmayaraq, cümhuriyyət düşmənləri hökuməti əllərinə almaq və arada hərcü mərclik salmaq niyyəti ilə yenidən bir neçə məhəllərdə [yerlərdə] çıxışlar yapmaq təşəbbüsündə bulunmuşdurlar.

Təşrini-saninin 9-da səhər Qori qəzaları Mecvrisxevi və Axalkələkdə sui-niyyətçilər məhəlli məmurları həbs edərək məhəlli hökuməti əllərinə aldıqlarından əlavə, Mecvrisxevidə məhəlli milis rəisini həbs etmişlərdir. Xalq qvardiyaları və kənd məmurları tərəfindən edilən tədabir [tədbirlər] nəticəsində bir neçə saatdan sonra sui-niyyətçilər həbs, intizam və asayiş bərpa edilmişdir. Sui-niyyətdə sabiqdə "Daşnaksutyun" firqəsi əzalarından məhsub [üzvlərindən hesab olunan] məhəlli içkixanaların sahibləri və bir neçə xırda oğrular baş rol oynamışlardır. Bunlar həbs edilmiş və 40 nəfər təhti-mühakiməyə [mühakimə altına] alınmışdır.

Lançxuti şəhərində təşrini-saninin 9-da gecə saat 3-də bolşeviklər bütün hökumət və camaat idarələrini əllərinə almış, teleqraf xətlərini kəsmiş, məhəlli dumanın qlasnısı Slisanini həbs etmişlərdir. Məhəlli qvardiya tərəfindən təcili edilən tədabirlə bir neçə saatdan sonra 100 nəfər sui-niyyətçilər həbsə alınmışlardır. Toqquşma əsnasında xalq qvardiyası nəfəratından bir nəfər qətl edilmişdir. Sui-niyyətdə bulunanların çoxusu Quriyanın hər bir tərəfindən cəm edilmiş naməlum, şübhəli, ələlxüsus oğru və haydudlardan [quldurlardan] ibarətdir.

Həman gün səhər saat 5-də bolşeviklər Supsa mövqifini [stansiyasını] əllərinə keçirərək, bütün idarələri işğal edərlər. Məhəlli milis və xalq qvardiyası müavinəti ilə zirehli qatar asayişi tamamilə bərpa edərək, 40 adam həbs edilmişdir. Toqquşma əsnasında xalq qvardiyasından üç nəfər qətl edilmişdir.

Təşrini-saninin 9-da bolşevik çətəsi Çixaturi tutub, Şura hökumətini elan və xalq qvardiyası ərkanı [qərargahı] üzvü Çikukidzeni həbs etmişdir. Çətəyə məşhur haydud Payçadze, Tiflisdə İngiltərə həkiminin qatili və qaçaq Georgi Dzneladze sərkərdəlik edirlərdi.

Bir çox qarətgərlər həbs edilmişdir. Bütün Quriyada əhali çıxmış olan sui-niyyətçilər əleyhinə mübarizədə ciddi surətdə iştirak edirdi. Sui-niyyətdə [terrorda] iştirak edənlərin cümləsi məhəllində [yerində] fövqəladə məhkəməyə veriləcəkdirlər.



**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*9090*

**Diş həkimi S. M. Hamburq**

Təzə işlər, qızıl, kauçuk, platina üzərində dişlər qayırılır. Qəbul olunur saat 9-dan 2-yədək, 4-dən 6-yadək. Nikolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*9056*

**Doktor Mustafa bəy Hacıqasımov**

Xüsusi arvad naxoşluqlarına müalicə edir. Qəbul edir axşamlar saat 4-dən 6-yadək, cümə günlərindən başqa.

Adres: Vorontsovski küçə, nömrə 17. Doktor Qarabəyovun müalicəxanası.

*14034*

**Doktor İ. M. Bronşteyn**

Xüsusi əmrazi-zöhrəviyyə, dəri və daxiliyyə naxoluqları qəbul edir. Hər gün səhər saat 10-dan 1-ədək; axşam saat 4-dən 7-yədək. Şamaxinka 12, telefon 4-21.

*14003*

**N. və S. Adamovların kantorası**

*Bakı, Birjevaya küçəsi 18, telefon 16-60*

Alınıbdır: Emalnı qab-qacaq, ip, veş, çəkmə sapı, yük ipi, corab dəstgahı, mərdanə corablar [kişi corabları], ağ paltar, kostyumlar, yun köynəklər, daraqlar, paltaryuyan sabun, rəng yağı və qeyri mallar. Satış külliyyatlədir.

*14021*

**Elan**

Hacı Tağı Ələsgərov və Sadıq Ələsgərovun vərəsəsi bununla elan edirlər ki, Bakı nahiyə məhkəməsinin baş notariusu tərəfindən iyunun 8-dən 1919-cu ildə 2019 nömrəli reyesterdə təsdiq olunmuş kupca mövcibincə [kupçaya əsasən], Mixaylovski küçədə olan 3 nömrəli ev onlara mənsubdur. Müqavilənamə üzrə evin icarədarları Kərbalayı Vəli Mikayılov və Məhəmməd Əli Rəsulzadədirlər. İxtilaf olmamaqdan ötrü yuxarıda söylənən bu evdə olan mənzil və dükan icarədarlarının nəzəri-diqqətinə elam edilir [bildirilir].

*14037*

**Elan**

Oktyabrın 30-da 1919-cu ildə Zakaspi-Qafqaz Səhmdarlar Cəmiyyətinin xarici və daxili ticarəti “Kotton-Vul”un nizamnaməsi Azərbaycan Cümhuriyyəti Ticarət, Sənaye və Ərzaq naziri tərəfindən təsdiq olundu.

*140*38

**200 manat mükafat**

Bu şeyləri tapanlar: 2 ədəd rus vekseli, biri 500 manatdan, 1 İran vekseli 2800 tümən, 1 hesab dəftəri, 6 ədəd qəbz və pasport Ağaşiyah Şiyahovun adına. Tapanlardan bu adresə gətirmələrini xahiş edirəm: Qoqolevski küçə, nömrə 9, xalça mağazası.

*14049*

Satılır buğ gəmisi (parovaya şxuna) “Misri” Kaspi dəryasının qırağında Samur çayının yaxınlığında. Şəraitini səhmdarlar cəmiyyəti “Rıbak” kontorasından (Staro-poliseyski küçə, nömrə 4) sormaq olar.

*14030*

**Fürsətdə istifadə ediniz**

Qayət möhkəm və qüvvəli böyük bir yük avtomobili ittifaqən [təsadüfən] ucuz satılır. Orlovski 16, Təhməzov.

*14047*

**Yük avtomobili ilə**

Şəhərdə körpü və mədənlərdə hər cürə yük və mebellərin nəqliyyatı qəbul olunur.

Naberejni, kontor Əlipaşa Rəcəbov, telefon 43-44.

*14048*

***Müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Almaniya inqilabının birinci illiyi**

səh. 316. “imperator Vilhelm”: 1888-1918-ci illərdə hakimiyyətdə olmuş Almaniya imperatoru II Vilhelm nəzərdə tutulur.

“İttifaqi-müsəlləs”: Almaniya, Avstriya-Macarıstan və İtaliyanın 1882-ci ildə əmələ gətirdiyi hərbi və siyasi blok. Birinci Dünya müharibəsinə doğru bu ittifaqa Osmanlı imperiyası daxil oldu; İtaliya blokdan çıxdı; Bolqarıstanın da daxil olmasıyla, bu blok Dördlər İttifaqına (tarixi ədəbiyyatda “Mərkəzi Dövlətlər” də deyilir) çevrildi.

“Etilafi-müsəlləs”: I Dünya müharibəsinin tərəflərindən biri olan Antanta bloku. Bu blokun aparıcı dövlətləri Böyük Britaniya, Fransa və Rusiya idi.

səh. 317. “Davud” (yaxud David): “Bibliya”ya görə, İsrailin ikinci çarı; müxtəlif mənbələrə görə e. ə. IX-XI əsrlər arasında yaşamışdır.

“Qolyat” (yaxud Qoliaf, Calut): Xristianların müqəddəs kitabı “Bibliya”nın birinci bölməsi “Əhdi-ətiq”ə görə, qədim filistinlilərin nəhəng döyüşçüsü. İsrail çarı Davud tərəfindən öldürülmüşdür.

“Mərkəzi dövlətlər” (yaxud Mərkəzi hökumətlər): Birinci Dünya müharibəsinin tərəflərindən biri olan İttifaq Dövlətləri (Almaniya, Avstriya-Macarıstan, Osmanlı İmperiyası, Bolqarıstan).

**Teleqraf xəbərləri**

səh. 319. “Fridrixştadt”: Latviyada, indiki Yanuelqava şəhəri 1917-ci ilə qədər Fridrixştadt adlanmışdır.

səh. 320. “Tittoninin məktubuna cavabən…”: qəzetdə soyadı təhrif edilmişdir.

**Türkiyədə**

səh. 323. “10 eylül [1]333”: burada tarix rumi təqvimlə verilmişdir; miladi təqvimlə 10 sentyabr 1917-ci ilə uyğundur.

səh. 327. “nəzəri-ümumidən nəticeyi-istidlalım”: qəzetdə “nəticeyi-istidlalım” yerinə “nəticeyi-etibar” getmişdir.

**Tərbiyə**

səh. 328. “E osuuu”: “eşşək oğlusu”.

“zillullah”: “Allahın kölgəsi” deməkdir; hədis olduğu iddia edilən bir qənaətə görə, hökmdar – “zillullah fil-ərz”, yəni “Allahın yer üzündəki kölgəsi”dir.

**Vükəla Şurasında**

səh. 329. “toluol”: kəskin iyli, uçucu, rəngsiz, zəhərli kimyəvi maddə; neftdən əldə edilir; bəzi üzvü kimyəvi maddələrin istehsalında xammal kimi, həmçinin kimyəvi sintezlərdə həlledici kimi istifadə edilir.

**Azərbaycan Sülhi-Ümumi Konfransında**

səh. 331. “İtaliya, heyətin Roma təriqi ilə”: qəzetdə, yanlış anlaşılmaya səbəb olacaq şəkildə belə getmişdir: “İtaliya heyətinin Roma təriqiylə”.

səh. 332. “Tan”: 1861-1942-ci illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik “Le Temps” qəzeti nəzərdə tutulur.

**Qeyd**

səh. 333. “Altun Orda xan Buhayxan”: bu təhrif edilmiş adla Qazaxların ictimai-siyasi xadimi, Alaş-Orda hökumətinin sədri, Altın Orda xanlarının nəslindən gələn Əlixan Bökeyxan (Bökeyxanov) nəzərdə tutulur.

“Übeydullah bin Məsud”: qəzetdə hər yerdə səhvən “Abdullah bin Məsud” getmişdir.

səh. 334. “Rəhmətullahi-təala rəhmətənvasiə”: “Allah ona çox rəhmət eləsin.”

**Bakı xəbərləri**

səh. 334. "qaubiç" (haubitsa): artilleriya silahı; top.

səh. 335. "Milli himn": qəzetdə "gimn" yazılmışdır.

**Firqələr və cəmiyyətlər**

səh. 336. "Şahtaxtinski": güman ki, Məhəmməd bəy Əli oğlu Şahtaxtinski nəzərdə tutulur.

səh. 337. "Əli paşa Şıxlinski": general Əliağa Şıxlinski nəzərdə tutulur.

səh. 338. "8 məhərrəm": burada tarix hicri təqvimlə verilmişdir; miladi təqvimlə 3 oktyabra uyğundur.

**Azərbaycanda**

səh. 339. "Xocabəyli": Şahsevənlərin bir tayfası.

"Kür Qaraqaşlı": qəzetdə kəndin adı təhrif edilmişdir.





**Bazar ertəsi, 17 noyabr 1919-cu il, nömrə 323**

# AZƏRBAYCAN

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

İkinci səneyi-dəvamiyyəsi. Düşənbə, 23 səfərül-müzəffər sənə 1338. 17 təşrini-sani 1919 sənə.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 3 manat.

Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.

Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.

1919 sənə noyabrın 17-də bazar ertəsi gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-340*

**SİRK "MODERN"**

**Mübarizənin son günləri**

Düşənbə günü noyabrın 17-ndə 1919-ncu ildə bu gün Buyvolovun benefisidir. Bu gün Buyvolov bacardığı fokusları göstərəcəkdir.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

Hamı güləşlər qətidir. 1-nci: Zakoroyko – Buyvolov; 2-nci: Qara Maska – Naməlum; 3-ncü: Gənc Əli – Kalişeviç.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında.

Tamaşa başlanacaq 8-də, tamam olacaqdır 12-də.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

*14053*

**"VOLNI SOYUZ" NƏŞRİYYATI**

1) Noyabr ayının ortasından Tiflisdə həftəlik 16-24 səhifədən ibarət "Na rubeje" adında bir məcmuə çıxır. Məcmuənin məqsədi millətlərin hürr yaşamağını və istiqlaliyyət hüququnu qövlən və feilən [sözdə və əməldə] müdafiə etmək, yeni təşkil olunmuş hökumətlərin və sabiq Rusiya imperatorluq millətlərinin ittifaqı fikri, demokratiyanın mərkəzi irtica və çarizm ilə bahəm mübarizəsi və həmçinin xırda millətlər arasında iqtisadi məqsədlərin əmələ gəlməsi. Məcmuənin sütunlarında yeni təşkil olunmuş hökumətlərin və millətlərin həftəlik xəbərləri veriləcək. Birinci nömrədə Arxangelski, Kruçinin, Tsalikov, Çaykin, Çokayev və qeyri müəlliflərin məqalələri çap olunacaqdır.

**"Union Liber"**

2) Dekabrın əvvəlindən Tiflisdə aylıq dəftərçələr kimi 32-48 səhifədən ibarət Fransa lisanında "Union liber" adında bir məcmuə çıxır. Məcmuə həftəlik "Na rubeje" məsləkində olub, məqsədi yeni təşkil olunmuş hökumətlərin və sabiq Rusiya imperatorluq millətlərin məişətindən və onların demokratik üsul ilə milli amalı yolunda mübarizədə bulunmaqlarından əcnəbi məmləkətlərə xəbər verməkdir.